07_27 IYUl-QARA.qxd 2/19/2026 10:58 PM Page 1


# Unikal

№07 (2286) 20 fevral 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az


# Səhiyyə sistemində köklü islahat:

## Vüqar Qurbanova həbs təhlükəsi, Zaur Əliyev isə...



Səh.5



## Hikmət Hacıyev Vardanyanla bağlı qərardan narazı qalanlara cavab verdi

*Bakı Hərbi Məhkəməsinin Ruben Vardanyanla bağlı çıxardığı qərar təkcə ədalətin bərpası deyil, həm də Azərbaycan xalqına böyük əzablar yaşatmış təxminən 30 illik münaqişənin simvolik və məntiqi yekunudur. "Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında bildirib. Prezidentin köməkçisinin sözlərinə görə, Azərbaycan unikal hərbi-siyasi münaqişə həlli modelini irəli sürüb, eyni zamanda, postmünaqişə dövrü üçün sülh gündəliyi formalaşdıraraq hərbi cinayətlər və insanlığa qarşı cinayətlərdə ittiham olunan şəxslərin, o cümlədən Bako Saakyan, Araik Harutyunyan...*

Səh.2

## Sənədsiz evlərlə bağlı yeni qərar nə vəd edir?



*Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı "Unikal"a müsahibə verib. O, Nazirlər Kabinetinin son qərarının sənədsiz evlər məsələsinə necə təsir edəcəyindən, hazırda mənzil bazarında qiymətlərin necə dəyişdiyindən, alıcıların bina, yoxsa fərdi evlərə üstünlük verməsindən və başqa məsələlərdən danışıb.*

Səh.4

## İran nüvədən, ABŞ hədədən əl çəkmir - Hərb, yoxsa sülh...



*Yaxın Şərqdə gərginlik yenidən yüksəlir. Amerika Birləşmiş Ştatları (ABŞ) ilə İran arasında nüvə proqramı ətrafında aparılan danışıqlar kritik mərhələyə daxil olub. Diplomatik kanallar açıq qalsa da, hər iki tərəfin qırmızı xətləri prosesi mürəkkəbləşdirir. Region və dünya isə bir sual ətrafında düşünür...*

Səh.9

## Ombudsmandan Vardanyan barəsində çıxarılan məhkəmə hökmü ilə əlaqədar bəyanat



*Azərbaycanın İnsan hüquqları müvəkkili (ombudsman) "Amnesty International" təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya üzrə direktoru Mari Strazersin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı cinayətlərdə təqsirli bilinərək...*

Səh.3

07_27 IYUI-QARA.qxd 2/19/2026 10:58 PM Page 2



# "İnanmırlar ki, mənim gözəllikdə xanım təkdir" - Türkan Vəlizadə




***Müğənni Türkan Vəlizadə səsləndirdiyi fikirlərlə sosial şəbəkələrdə müzakirələrə səbəb olub.***

Sənətçi şəxsi həyatı və ailə qurmaqla bağlı baxışlarını açıq şəkildə ifadə edib. O, bildirib ki, bu gün sahib olduqlarını böyük zəhmətlə qazanıb: ”Zülmlə işləyib ev-eşik almışam. Evdekiləri yerləşdirmişəm. İndi ərimi gətirib harada yerləşdirəcəyəm?”.

Vəlizadə maddi məsələnin onun üçün önəmli olduğunu gizlətməyərək kasıb biri ilə ailə qurmağı düşünmədiyini etiraf edib. Bununla yanaşı, xasiyyətcə mehriban və ünsiyyətcil olduğunu, hər kəslə yola gedə bildiyini də əlavə edib.

Müğənni gözəlliyə heç vaxt üstünlük vermədiyini desə də, bir çox insanın onun kimi gözəl xanımın subay qalmasına inanmadığını qeyd edib: ”Deyirlər ki, sənin kimi gözəllikdə xanım necə təkdir? Cavab verirəm ki, qarşıma yaxşı bəy çıxmayıb. Qismət Allahdandır”.

Onun bu sözləri birmənalı qarşılanmayıb və sosial mediada geniş müzakirə olunub.

# "Ərə getdiklərim evə çörək almırdı, qalsın ki, mənə maşın alsınlar" - Aysun İsmayılova



***Müğənni Aysun İsmayılova açıqlaması ilə yenidən gündəmə gəlib.***

Milli.Az-ın məlumatına görə, bahalı hədiyyə alan xanımlardan danışan sənətçi özü belə hədiyyələri qəbul etməyəcəyini bildirib: ”Bəxtəvər onların başına. Məndə o bəxt haradadır ki, bahalı hədiyyə alsınlar? Amma alsalar da qəbul etmərəm heç vaxt”.

İfaçı şəxsi həyatı ilə bağlı da diqqətçəkən fikirlər səsləndirib. Onun sözlərinə görə, ərə getdiyi şəxslər ona maddi dəstək göstərməyiblər: ”Ərə getdiyim şəxslər bir çörək almırdılar, qalsın ki, maşın alalar. Yazıq canım, hər şeyi özüm alıram”.

Aysunun bu açıqlaması sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub. Bəzi izləyicilər sənətçinin müstəqil və güclü qadın obrazını dəstəkləyib, digərləri isə səsləndirilən fikirləri tənqid ediblər.

## “Ayda 1200-1500 manat qazansam, rahat dolanaram”



***Meyxanaçı Aydın Sani qatıldığı ”Rəngarəng” verilişində maraqlı açıqlamaları ilə diqqət çəkib.***

Milli.Az xəbər verir ki, sənətçi gündəlik həyat xərclərindən və dolanışıq şərtlərindən danışıb.

O, bildirib ki, yaşadığı mühiti, geyim-keçim xərclərini, eləcə də xeyir-şər mərasimləri üçün tələb olunan vəsaiti nəzərə alanda aylıq 1200-1500 manat gəlirin onun üçün kifayət edəcəyini düşünür: ”Biləm ki, bu qədər maaş alıram, özümü də dolandıraram, ailəmə də çatdıraram. Hətta dostlarıma da haradasa dəstək ola bilərəm”, - deyə meyxanaçı vurğulayıb.

Aydın Sani hazırkı dövrdə maddi ehtiyatın və ya güvənə biləcəyin dost çevrəsinin önəmli olduğunu qeyd edib: ”Elə bir zamanda yaşayırıq ki, ya ehtiyat pulun olmalıdır, ya da arxanda dayanan dostun. Şükür, özüm də qazanıb dolanıram, dostum da var”.

Onun bu fikirləri sosial şəbəkələrdə müzakirələrə səbəb olub.

## Ölüm xəbəri yayılan Orxan Lökbatanlı danışdı: "Allaha tapşırıram..."



***Xəbər verdiyimiz kimi, ötən gecə meyxanaçı Orxan Lökbatanlının ölüm xəbəri yayılıb.***

Söz ustası bu barədə iddialara aydınlıq gətirib.

Orxan sosial şəbəkə hesabında video çəkərək həmin xəbəri yayan şəxsə üzünü tutub: ”Hansısa vicdansız, ona azərbaycanlı demək olmaz. O elə azərbaycanlı düşmənidir. Götürüb xəbər yayıb ki, Orxan vəfat edib. Əvvəla, ölümü hər gün xatırlamaq lazımdır, amma Ramazan ayının ilk günü, niyyət axşamı bu qədər insanı narahat etmək... Belə bir adamı Allaha tapşırıram”.

## Həmin ifaları yutubdan sildirib?



***Müğənni Ayşən Mehdiyeva ”Zəngəzur butası” ifası ilə bağlı mübahisələrə aydınlıq gətirib.***

Axşam.az xəbər verir ki, digər ifaçıların bu mahnıları sosial mediada silinib. A.Mehdiyeva ifaları şikayət etmədiyini deyərək, onların silinməsini belə izah edib:

”Başı bəlalı mahnım. ”Zəngəzur butası” qədim xalq havasıdır. Yeni tərtibatı Çangiz Mehdipoura məxsusdur. Havanın ilk səs yazısı mənə məxsusdur, platformalarda da ilk ifaçı olaraq mənim adım keçir. Buna görə də digər ifaçıların adı qəbul olunmur, pozulur. Bu qədər sadə”.

## Tənqidlərə belə reaksiya verdi



***Əməkdar artist Elnarə Abdullayeva qayınanasının vəfatından sonra məclisə qatılmasını tənqid edənlərə reaksiya verib.***

Axşam.az xəbər verir ki, müğənni ”Qonaqcanlı” verilişində bunları deyib: ”Bir müddət efirə çıxmadım. O tərəfdən bura xəbər göndərmək olsaydı, qayınanam məni danlayardı. Deyərdi, nə olsun ölmüşəm, niyə efirə çıxmırsan? Həmişə mən oxuyanda deyirdi, səsinə anan qurban olsun. Çox yaxşı xanım idi. Hər şeyi çox yerində edərdi. Elə bilirdik ki, hamının pulu qurtarsa da, ananın pulu qurtarmaz. Valideynlərim rəhmətə getmişdi. O, mənə ana idi. Ana məhəbbəti, hörməti hər insanda olmur”.




## "Azərbaycan regional təhlükəsizliyin qorunmasında rolunu artırıb" - Deputat

***”Azərbaycan Prezidenti İlham Əliyev Vaşinqtonda keçiriləcək Sülh Şurasının ilk iclasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə bu ölkədə işgüzar səfərdədir”.***

”Unikal” xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, 26 dövlət artıq Sülh Şurasına qoşulub və daha 6 ölkə təmsil olunacağını bəyan edib:

”İtaliya daxil olmaqla Avropa İttifaqının 5 ölkəsi Sülh Şurasının ilk iclasına qatılmaq qərarı verib. Meksika da iclasda iştirak edəcək ölkələr sırasındadır. Qəzzanın bərpası üçün Şuraya üzv olan dövlətlər tərəfindən 5 milyard dollar ianə olunmasının ilk iclasda ABŞ Prezidentinin bəyan edəcəyi gözlənilir. BMT-nin qiymətləndirmələrinə görə, Fələstinin tam bərpası üçün 70 milyard dollar tələb olunur. Çox vektorlu xarici siyasət Azərbaycanın Qərb və Şərqlə tərəfdaşlığını gücləndirərək regional təhlükəsizliyin qorunmasında rolunu daha da artırıb. Donald Trampın ABŞ Prezidenti seçilməsindən sonra Birləşmiş Ştatlar ilə Azərbaycan arasındakı münasibətlərin inkişafı müşahidə olunur. Qafqazda sülhə töhvə verməyə çalışan ABŞ ilə ikitərəfli əlaqələrimiz də genişlənir.

Azərbaycan Yaxın Şərqdə sülh və stabilliyin əldə edilməsində və qorunub saxlanmasında maraqlı ölkədir. Yaxın Şərq dövlətləri ilə əlaqələri son illər daha da gücləndirən Azərbaycan bir sıra region ölkələri ilə birgə layihələr reallaşdırır. Yeni qlobal və regional düzən fonunda Azərbaycanın geosiyasi mövqeyi daha da güclənməkdədir”.

## Naxçıvan AYDA-nın sabiq sədri külli miqdarda mənimsəmədə ittiham olunur

***“Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi” publik hüquqi şəxsin İdarə Heyətinin sabiq sədri Bəhruz Əsgərov xüsusilə külli miqdarda mənimsəmədə təqsirləndirilir.***

”Unikal” Apa-ya istinadən xəbər verir ki, onunla bağlı Baş Prokurorluqda cinayət işi açılıb, Cinayət Məcəlləsinin 179.4-cü (Mənimsəmə, xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 313-cü (Vəzifə saxtakarlığı) maddələri ilə ittiham irəli sürülüb. Onun barəsində həbs qətimkan tədbiri seçilib.

Cinayət işi araşdırılması üçün Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsində icraata verilib.

Qeyd edək ki, Bəhruz Əsgərov 2009-cu ildə “Naxçıvan Avtomobil Yolları Dövlət Şirkəti”nə baş direktor təyin olunub. 2018-ci ildə “Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi” yaradılıb, 2023-cü ildə isə publik hüquqi şəxsə çevrilib.

Bəhruz Əsgərov 27 noyabr 2023-cü ildə “Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi” publik hüquqi şəxsin İdarə Heyətinin sədri təyin edilib. 22 fevral 2025-ci ildə vəzifəsindən azad olunub. Bəhruz Əsgərov 01.06.2018-ci ildən 31.12.2023-cü ildək olan müddət ərzində xüsusilə külli miqdarda mənimsəmədə ittiham olunur.

Dövlət büdcəsinə dəyən ziyanın 5 milyon manatdan çox olduğu bildirilir.

# Vüqar Qurbanova həbs təhlükəsi...

## TƏBİB-in sabiq rəhbəri yalnız vəzifədən azad edilməklə işin içindən çıxa bilməyəcək - Bundan sonra nə baş verəcək?

***Yola salmaq üzrə olduğumuz həftə Vüqar Qurbanov Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru vəzifəsindən azad edilib. Qərar rəsmən elan olunsa da, səbəbləri barədə ictimaiyyətə geniş açıqlama verilməyib. Sabiq rəhbər isə Müşahidə Şurasının qərarını “normal qarşıladığını” bildirməklə kifayətlənib.***

Elə cəmiyyət də Qurbanovun işdən azad edilməsini normal qarşılayıb. Burada sürpriz heç nə yoxdur. Onun rəhbərliyi altında TƏBİB-lə bağlı çoxsaylı iddia və ittihamlar səslənib. Sözügedən iddia və ittihamların arealı kifayət qədər genişdir. İlk sırada isə korrupsiya şübhələri gəlir. Əslində buna şübhə demək də doğru sayılmazdı.

“Unikal”ın əldə etdiyi məlumata görə, 2025-ci ilin sentyabrında Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən TƏBİB-də yoxlamaların aparılması ilə bağlı məlumatlar yayılmışdı.



Vüqar Qurbanovun da vəzifədən azad olunmasının sözügedən yoxlamaların nəticəsilə əlaqəli olması istisna olunmur. İddialara görə yoxlamalar nəticəsində maliyyə pozuntuları aşkarlanıb. Burada söhbət milyonlarla vəsaitin mənimsənilməsindən gedirdi.

Həmin milyonlar fonunda Qurbanovun TƏBİB rəhbərliyinə gətirildikdən sonra sürətlə varlanmağa başladığına dair xəbərlər də diqqətdən qaçmaya bilməz. Milli.az yazmışdı ki, onun təkcə 99-VJ-999 nömrəli ”BMW X7” markalı şəxsi avtomobilinin bazar dəyəri 250-300 min manatdır.

Son gələn xəbərlər isə TƏBİB-də rəhbər dəyişikliyinin yalnız işdən azadetmə ilə yekunlaşmayacağı təəssüratı yaradır. Artıq məsələnin adi kadr dəyişikliyi çərçivəsindən xeyli kənara çıxdığı yönündə fikirlər dolaşmaqdadır. TƏBİB-in sabiq rəhbərinin yaxın günlərdə hüquq-mühafizə orqanları tərəfindən məsuliyyətə cəlb ediləcəyi, həbsinin qaçılmaz olduğu iddiaları səslənir.

Maraqlıdır ki, qərardan dərhal sonra sabiq rəhbərə yaxın media resurslarında yumşaq tonlu, məsuliyyəti minimuma endirən yazılar yayımlandı. Bu isə ictimai rəyin yönləndirilməsi cəhdi kimi qiymətləndirilə bilər. Lakin rəsmi izahın olmaması iddiaların daha da böyüməsinə şərait yaradır.

Modern.az yazıb ki, redaksiyaya daxil olan məlumatlarda ən ciddi məqam qurum daxilində qərarvermə mexanizmlərinin şəxsi münasibətlər üzərindən formalaşmasıdır.

İddialara görə, TƏBİB-də əsas idarəçilik rıçaqları sabiq rəhbərin yaxın çevrəsinin əlində cəmləşibmiş. Əgər bu məlumatlar təsdiqini tapsa, söhbət sadəcə etik pozuntudan deyil, dövlət idarəçiliyində maraqlar toqquşmasından və vəzifə səlahiyyətlərindən sui-istifadədən gedə bilər. Bu isə artıq hüquqi müstəviyə çıxarıla biləcək məsələdir.

Digər diqqətçəkən məqam sabiq rəhbərin səhiyyə naziri postuna iddialı olması ilə bağlı yayılan informasiyadır. Qeyd edək ki, Azərbaycanda səhiyyə siyasətinin formalaşdırılmasına görə məsul qurum Səhiyyə Nazirliyidir. TƏBİB isə icraedici funksiya daşıyır və İcbari Tibbi Sığorta sisteminin tətbiqində əsas rol oynayır.

Mənbələr bildirir ki, məsələ təkcə kadr dəyişikliyi ilə yekunlaşmaya bilər. Hüquq-mühafizə orqanlarının araşdırma apardığı iddia olunur. Söhbət maliyyə intizamı, satınalmalar, kadr təyinatları və struktur qərarlarının qanunauyğunluğundan gedir.

TƏBİB son illər milyardlarla manatlıq dövlət vəsaitinin dövriyyədə olduğu quruma çevrilib. Bu isə avtomatik olaraq şəffaflıq və hesabatlılıq məsələsini prioritetə çıxarır. Əgər audit və ya istintaq nəticəsində pozuntular aşkar edilərsə, cinayət işinin başlanması istisna deyil.

Hazırda ortada rəsmi ittiham yoxdur. Lakin fakt budur ki, səbəbsiz və izahsız uzaqlaşdırma dövlət idarəçiliyində nadir hallarda baş verir.

Bir məsələ aydındır ki, proses yeni başlayır. Və görünən odur ki, “bu xəmir” həqiqətən də çox su aparacaq.

Bu arada Mia.az-ın əldə etdiyi məlumata görə, Müşahisə Şurasına verilə tapşırıq əsasında TƏBİB-in Mərkəzi Aparatında da dəyişiklik gözlənilir. İddialara görə, qurumun İctimaiyyətlə əlaqələr və Kommunikasiya Departamentinin rəhbəri Zamirə Adilova, aparat rəhbəri, eləcə də digər iki departament rəhbəri Vüqar Qurbanovun sadiq kadrları kimi yola salınacaq...

Ümumilikdə isə görünən odur ki, qarşıdakı günlərdə TƏBİB-in sabiq rəhbəri və onun yaxın ətrafı ilə bağlı kifayət qədər ilginc yeniliklərin şahidi ola bilərik. Söhbət ilk növbədə bu qurumdakı korrupsiya, yeyinti iddiaları ilə bağlı hüquqi müstəvidə araşdırmalara başlanılıb-başlanılmayacağından, keçmiş rəhbərliyin cinayət məsuliyyətinə cəlb edilib-edilməyəcəyindən gedir.

Onu da deyək ki, Vüqar Qurbanovun sələfi Ramin Bayramlının vəzifəsindən uzaqlaşmasında da qurumdakı korrupsiya faktlarının ciddi rolu olduğu bildirilirdi. Belə ki, Hesablama Palatasının adıçəkilən qurumda ilk dəfə yoxlama keçirməsinin ardından 2021-ci ildə Bayramlı cəmi iki il tutduğu postdan kənarlaşmışdı. Onun istefasının məhz yoxlama zamanı ciddi yeyinti hallarının aşkarlanması ilə bağlı olduğuna dair iddialar vardı. Lakin Bayramlı yalnız vəzifəsini itirməklə canını qurtara bildi. Bəs Vüqar Qurbanov necə, o da sələfi kimi təkcə işsiz qalmaqla düşdüyü vəziyyətdən çıxa biləcəkmi?

Bu suala yəqin ki, yaxın günlərdə, həftələrdə tam aydınlıq gələcək. Odur ki, gözləyək...

***Toğrul Əliyev***

07_27 IYUI-QARA.qxd 2/19/2026 10:59 PM Page 4



# İran nüvədən, ABŞ hədədən əl çəkmir - Hərb, yoxsa sülh...

***Yaxın Şərqdə gərginlik yenidən yüksəlir. Amerika Birləşmiş Ştatları (ABŞ) ilə İran arasında nüvə proqramı ətrafında aparılan danışıqlar kritik mərhələyə daxil olub. Diplomatik kanallar açıq qalsa da, hər iki tərəfin qırmızı xətləri prosesi mürəkkəbləşdirir. Region və dünya isə bir sual ətrafında düşünür: hərb, yoxsa sülh?***

Danışıqlar davam edir, hər iki tərəfin dediyinə görə irəliləyiş əldə olunur, amma yekun razılaşma hələ sual altındadır.

Vaşinqton və Tehran arasında birbaşa və dolayı kanallarla aparılan danışıqlarda əsas mövzu İranın nüvə proqramıdır. ABŞ İrandan uranın zənginləşdirilməsi səviyyəsini aşağı salmasını və beynəlxalq nəzarətin gücləndirilməsini tələb edir. Tehran isə sanksiyaların mərhələli şəkildə ləğvini əsas şərt kimi irəli sürür.

2015-ci ildə imzalanmış Joint Comprehensive Plan of Action (JCPOA) razılaşması uzun müddət bu çərçivəni müəyyən etmişdi. Lakin ABŞ-nin sazişdən çıxması və sonrakı sanksiyalar rejimi yenidən gərginlik yaratdı. İndi tərəflər ya yenilənmiş format tapmalı, ya da qarşıdurma riskini qəbul etməlidirlər.

### Danışıqlar uğursuz olarsa, hərbi ssenari nə qədər realdır?

Tarix göstərir ki, ABŞ regionda məhdud hərbi əməliyyatlara əl atıb. Donald Tramp üçün hücum planı heç də çətin və qeyri-real görünmür. Ötən ilin yay ayında İranla İsrail arasında 12 günlük müharibə də ABŞ-nin bombardmanları ilə sona çatmışdı. ABŞ Hərbi Hava Qüvvələri İranın nüvə obyektlərini B-2 bombardmançı təyyarələri ilə vurdu. Nəticədə İranın Fordo, Natanz və İsfahandakı nüvə obyektləri sıradan çıxdı.

İndi də Pentaqonun İrana qarşı bir neçə həftə çəkəcək və müharibəyə çevrilə biləcək genişmiqyaslı hərbi əməliyyat planı var. Nəzərə almaq lazımdır ki, ABŞ-nin Yaxın Şərqdə iki nəhəng təyyarədaşıyan gəmisi var. Onlar F-22 və F-35 qırıcı təyyarələri ilə gücləndirilib. İndi hər şey Trampın islam respublikasına qarşı zərbələr barədə yekun qərarından asılıdır...

Hərbi əməliyyat baş verərsə, əsas hədəf yenə nüvə obyektləri və bununla yanaşı, hərbi infrastruktur da ola bilər. Lakin İranın ballistik raketləri, regiondakı müttəfiq qüvvələr və xüsusilə Hörmüz boğazı üzərindən enerji daşımalarına təsir imkanları ilə cavab potensialı münaqişəni regional müharibəyə çevirə bilər.

Lakin Vaşinqton rəsmi olaraq diplomatiyanın prioritet olduğunu bildirir. Bununla belə, bölgədə hərbi mövcudluğun artırılması ehtimalı və bütün variantların masada olması barədə bəyanatlar hərbi ssenarinin tam istisna edilmədiyini göstərir.

İranın ali rəhbəri Əli Xamenei ölkənin strateji kursunu müəyyən edən əsas fiqurdur. Onun da müharibə və ya ağır hərbi zərbələr ssenarisində bir neçə mümkün planı var: Bayraq ətrafında birləşmə effekti - xarici hücum daxili narazılığı zəiflədərək rejimi qısamüddətli möhkəmləndirə bilər.

İqtisadi çətinliklər və sosial narazılıq artarsa, hakimiyyət daxilində güc mübarizəsi dərinləşə bilər. Rejim dəyişikliyi ehtimalı isə yalnız genişmiqyaslı və uzunmüddətli qarşıdurma, yaxud daxili elita parçalanması halında mümkündür. Qısa müddətdə belə bir ssenarinin gerçəkləşməsi ehtimalı zəif görünür.

İran dünya enerji bazarında mühüm oyunçudur. Hörmüz boğazında hər hansı bağlanma və ya təhlükəsizlik riski neft qiymətlərini kəskin artıra bilər. Bu isə qlobal inflyasiya və iqtisadi qeyri-müəyyənliyi dərinləşdirə bilər.

Bundan başqa, regiondakı digər güclər - Rusiya, Çin, Körfəz ölkələri və İsrail prosesdə dolayısı və ya birbaşa rol oynaya bilər. Beləliklə, ABŞ-İran qarşıdurması yalnız ikitərəfli məsələ deyil, geniş geosiyasi balansın tərkib hissəsidir.

Hazırkı mərhələdə ən ehtimal olunan variant nə tam sülh, nə də tam müharibə modelidir. Yəni, diplomatik kanallar açıq qalır, sanksiyalar və qarşılıqlı təzyiqlər davam edir, hərbi ritorika artır, lakin birbaşa genişmiqyaslı müharibə təxirə salınır.

Məhdud zərbələr və ya "kölgə qarşıdurma" ssenarisi daha real görünür. Lakin səhv hesablamalar və ya qəfil insident vəziyyəti sürətlə dəyişə bilər.



ABŞ və İran arasındakı danışıqlar Yaxın Şərqin gələcəyini müəyyən edə biləcək mərhələdədir. Razılaşma əldə olunarsa, region nisbi sabitlik qazana bilər. Uğursuzluq isə hərbi eskalasiya riskini artıracaq, lakin bu, avtomatik olaraq genişmiqyaslı müharibə demək deyil. Çünki İranın cavab zərbələri çox vaxt uğursuz alınır. Nəticədə ölkə qisas aldığını iddia edir, qarşı tərəf itki vermədiyi üçün sakitləşir.

İran rejiminin taleyi, eləcə də Xameneinin aqibəti əsasən daxili güc balansından və müharibənin miqyasından asılı olacaq. Odur ki, qısa müddətdə sistemin çökməsi real görünmür. Uzunmüddətli perspektivdə isə iqtisadi və siyasi təzyiqlər həlledici rol oynaya bilər.

Hazırda dünya maraqla gözləyir ki, diplomatiya qalib gələcək, yoxsa proseslər yeni bir regional böhran səhifəsi açacaq...

***Ağarza Elçinoğlu***



## Çingiz Qənizadənin şikayəti əsasında Paris məhkəməsi Qənimət Zahidlə bağlı qərar verdi

***"6 ilə yaxındır ki, Paris Cinayət Məhkəməsinin qərarını açıqlamaq istəyirdim".***

"Unikal" xəbər verir ki, bu sözləri ona böhtan atanlara qarşı qaldırılmış məhkəmədən bəhs edən zaman Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə deyib.

"2019-cu ildə Qənimət Zahidov özünün "Azərbaycan Səsi" YouTube kanalında mənimlə bağlı böhtan xarakterli məlumatlar yaydı. 2019-cu ilin yanvarın 3-də baş vermiş cinayət işi ilə bağlı guya mənim iştirakım və ya təşkilatçılığım olduğunu iddia etdi. Həmin verilişlərdə bildirildi ki, guya mən Avropa Şurasında Azərbaycan nümayəndə heyətinin üzvüyəm və buna görə məsuliyyətə cəlb olunmuram, həmçinin Azərbaycanda mənə toxunulmadığı iddia edildi".

O bildirib ki, buna görə Fransada məhkəməyə müraciət etmək qərarı aldım: "2019-cu ilin noyabrında Parisdə vəkillərlə müqavilə bağladıq və materialları fransız dilinə tərcümə edərək məhkəməyə təqdim etdik. Pandemiya səbəbindən proses uzansa da, 21 oktyabr 2025-ci ildə Paris Cinayət Məhkəməsi qərarını elan etdi. Bu müddətdə bir neçə iclas keçirildi və nəhayət son dinləmələrdən sonra qərar verildi. Məqsədim yayılan məlumatların yalan olduğunu sübut etmək və adımı təmizləmək idi. Çünki həmin iddialar 2020-ci il seçkiləri zamanı mənə qarşı istifadə olunmuşdu".

## Tanınmış vəkil nümayəndəlik etdiyi şəxsi məhkəməyə verdi

***Tanınmış vəkil Nüşabə Ağayevanın vaxtilə nümayəndəlik etdiyi şəxs olan Xalid Kərimovu onu sosial şəbəkələrdə təhqir etdiyinə görə məhkəməyə verib.***



"Unikal"ın əldə etdiyi məlumata görə, vəkil Xalid Kərimov barəsində Cinayət Məcəlləsinin 147.2-ci (ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) və 148-ci (təhqir) maddələri ilə məhkəməyə xüsusi ittiham qaydasında ərizə təqdim edib.

Ərizənin istintaqı Zəngilan Rayon Məhkəməsinin hakimi Gülsarə İmanovanın sədrliyi ilə keçirilən proseslərdə araşdırılacaq.

Xatırladaq ki, Xalid Kərimov hazırda məhkəməsi gedən "Beniz" ləqəbli tiktoker Aybəniz Xəlilovanın cinayət işində zərərçəkmiş şəxsə qismində tanınıb.

Nüşabə Ağayeva ibtidai istintaq dövründə Xalid Kərimovun vəkili olub.

Bir müddət sonra tərəflər arasında gərginlik yaranıb və bundan sonra Xalid Kərimov onunla bağlı bəzi şərəf və ləyaqəti alçaldan, böhtan xarakterli məlumatları sosial şəbəkələrdə paylaşıb.

***Seymur Əli***

07_27 IYUl-QARA.qxd 2/19/2026 10:59 PM Page 5






## Prezident Vaşinqtonda Sülh Şurasının iclasında iştirak edir

***Vaşinqtonda Sülh Şurasının ilk iclası keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə iclasda iştirak edib.

Prezident Vaşinqtonda Ermənistan, Özbəkistan və Qazaxıstan liderləri bir araya gəlib. Daha sonra "Sülh Şurası"na üzv dövlətlərin liderləri birlikdə xatirə şəkli çəkdiriblər.

İclasın sonunda Sülh Şurasının qətnaməsi imzalandı.

Qeyd edək ki, bu ilin yanvar ayının 22-də Davosda ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılan Sülh Şurası təsis edilib.

## Hikmət Hacıyev Vardanyanla bağlı qərardan narazı qalanlara cavab verdi

***Bakı Hərbi Məhkəməsinin Ruben Vardanyanla bağlı çıxardığı qərar təkcə ədalətin bərpası deyil, həm də Azərbaycan xalqına böyük əzablar yaşatmış təxminən 30 illik münaqişənin simvolik və məntiqi yekunudur.***



"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında bildirib.

Prezidentin köməkçisinin sözlərinə görə, Azərbaycan unikal hərbi-siyasi münaqişə həlli modelini irəli sürüb, eyni zamanda, postmünaqişə dövrü üçün sülh gündəliyi formalaşdıraraq hərbi cinayətlər və insanlığa qarşı cinayətlərdə ittiham olunan şəxslərin, o cümlədən Bako Saakyan, Araik Harutyunyan, Ruben Vardanyan və digərlərinin məsuliyyətə cəlb olunmasını təmin edib: "Xocalı soyqırımının növbəti ildönümü ərəfəsində bu məhkəmə qərarlarının qəbul edilməsi bu faciənin və bütövlükdə münaqişənin günahsız qurbanlarının xatirəsinə dərin ehtiramdır".

Hikmət Hacıyev qeyd edib ki, beynəlxalq məhkəmə və ya tribunalın, məsələn, Nürnberq məhkəmələri, keçmiş Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalı və ya Ruanda Beynəlxalq Cinayət Tribunalı kimi mexanizmlərin yaradılması gözlənilsə də, mövcud beynəlxalq mühitdə hüququn tətbiqi belə siyasiləşir və ikili standartlara məruz qalır: "Bu səbəbdən Azərbaycan açıq məhkəmə prosesləri təşkil edərək ədaləti öz hüquq sistemi çərçivəsində təmin edib və bununla beynəlxalq ictimaiyyət üçün nümunə ortaya qoyub. Eyni zamanda, bəzi dairələrin, o cümlədən Avropa Parlamentinin bəzi üzvlərinin və "Amnesty International" kimi təşkilatların ağır hərbi cinayətlərdə ittiham olunan şəxslərin azadlığa buraxılmasına çağırış etməsi qeyri-etik, qeyri-mənəvi addımdır. Azərbaycan Prezidenti İlham Əliyev "France 24" telekanalına müsahibəsində bu məsələyə toxunaraq bildirib: "İkinci Dünya müharibəsindən sonra Nürnberq məhkəmələrində ölüm hökmünə məhkum edilmiş bütün o nasist liderlərini təsəvvürünüzə gətirin ki, iki aydan sonra kimsə gəlib deyəcək, xahiş edirəm, onları azad edin. Onların törətdiyi cinayət İkinci Dünya müharibəsi zamanı nasistlərin etdiklərindən daha pis idi".

Cinayət olan yerdə məsuliyyət də olmalıdır və ədalət tam şəkildə təmin edilib. Hərbi cinayətlərdə ittiham olunan şəxsin bəraət alması həmin cinayətlərin legitimləşdirilməsi və cəzasızlıq mühitinin təşviqində iştiraka bərabərdir. Davamlı sülh və etnik barışıq ədalət olmadan mümkün deyil. Azərbaycan isə regional sülh gündəliyinin irəli aparılması və möhkəmləndirilməsi istiqamətində qətiyyətli səylərini davam etdirəcək".

Qeyd edək ki, Ruben Vardanyan 20 il azadlıqdan məhrum edilib.

## Leyla Əliyeva Tiranada Universitet Xəstəxana Mərkəzini ziyarət etdi



***Leyla Əliyeva Tiranada fəaliyyət göstərən "Hannah və Rosafa" uşaq evini ziyarət edib.***

"Unikal" xəbər verir ki, uşaq evi valideyn himayəsindən məhrum olan və ya sosial təhlükə mühitində yaşayan azyaşlılar üçün nəzərdə tutulmuş dövlət müəssisəsidir.

Qeyd olunub ki, qurumun fəaliyyəti xüsusilə 0-6 yaşarası uşaqların mühafizəsi, tərbiyəsi və onlara hərtərəfli qayğının göstərilməsi istiqamətinə yönəlib.

Bildirilib ki, müəssisədə uşaqlar erkən inkişaf dövründə ehtiyac duyduqları psixoloji dəstək, tibbi xidmət və mənəvi qayğı ilə əhatə olunur.

Sonra Leyla Əliyeva "Mother Teresa" Universitet Xəstəxana Mərkəzi ilə tanış olub.

Diqqətə çatdırılıb ki, Mərkəz bütün Albaniyada, o cümlədən Tiranada əsas dövlət universitet xəstəxanasıdır. Burada xəstələrə ixtisaslı kadrlar tərəfindən ən qabaqcıl texnologiyalardan istifadə olunmaqla yüksəksəviyyəli tibbi xidmətlər göstərilir.

Qeyd olunub ki, ölkənin əsas onkoloji xidməti burada cəmlənərək, xəstələrə şüa, kimyaterapiya və mürəkkəb cərrahi müalicə imkanları təqdim edilir.

Mərkəzdə hər bir uşağın sağlamlığına həssaslıqla yanaşılır, onların müalicə prosesi şəfqətli yanaşma və rəngarəng mühitlə dəstəklənir.

## Şəhidlərimiz dəfn olundu

***Göyçay rayonunda Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən Vüqar Səlim oğlu Babayevlə vida mərasimi keçirilib.***



"Unikal" xəbər verir ki, vida mərasimində şəhidin doğmaları, Göyçay rayonunun rəsmi şəxsləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər və ictimaiyyət nümayəndələri iştirak ediblər. Vida mərasimindən sonra şəhidin nəşi Göyçayın Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Qeyd edək ki, Vüqar Səlim oğlu Babayev 1972-ci il aprelin 16-da Göyçayın Qarabaqqal kəndində anadan olub. 1994-cü il fevralın 12-də Kəlbəcər rayonunun Yanşaq kəndi istiqamətində gedən döyüşlər zamanı itkin düşüb.

Cəlilabad şəhərində Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən Mahir Abuzər oğlu Quliyevlə vida mərasimi keçirilib. Daha sonra onun nəşi rayonun Cəlilabad şəhər qəbiristanlığında torpağa tapşırılıb.

Mahir Abuzər oğlu Quliyev 1958-ci il oktyabrın 31-də Cəlilabad şəhərində anadan olub. 1992-ci il iyunun 15-də Ağdərə rayonunun Sırxavənd kəndi istiqamətində gedən döyüşlər zamanı itkin düşüb. Sabirabad rayonunun Nərimankənd kəndində Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və nəşinin qalıqları 33 ildən sonra tapılan şəhid Rəsul Babaxan oğlu Ağayevlə vida mərasimi keçirilib. Vida mərasimindən sonra onun nəşinin qalıqları Nərimankənd kənd qəbiristanlığında torpağa tapşırılıb.

Xatırladaq ki, R.Ağayev 1968-ci il avqustun 25-də Sabirabadın Nərimankənd kəndində anadan olub. 1993-cü il iyulun 12-də Ağdərə rayonunun Sırxavənd kəndi istiqamətində itkin düşüb.

Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən şəhid Azad Sabir oğlu Cəlilov Ucar rayonu Alpout kənd qəbiristanlığında torpağa tapşırılıb.

Qeyd edək ki, Azad Sabir oğlu Cəlilov 1975-ci il fevralın 14-də Ucarın Alpout kəndində anadan olub. 1994-cü il fevralın 6-da Kəlbəcər rayonunun Bağırlı kəndi (Murovdağ silsiləsi) istiqamətində gedən döyüşlər zamanı itkin düşüb. Lerikdə Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən Nail Dənziyevlə vida mərasimi keçirilib. Vida mərasimindən sonra onun nəşi rayonun Mastail kənd qəbiristanlığında torpağa tapşırılıb.

Xatırladaq ki, Nail Fahil oğlu Dənziyev 1974-cü il mayın 29-da Lerikin Mastail kəndində anadan olub. 1992-ci il sentyabrın 29-da Ağdərə rayonunun Sırxavənd kəndi istiqamətində gedən döyüşlər zamanı itkin düşüb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

## Tramp Azərbaycan-Ermənistan normallaşma prosesindən danışıb

***ABŞ Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanla münasibətləri haqda danışıb.***

O, bu məsələyə "Sülh Şurası"nın ilk iclasında toxunub. Tramp "32 il davam edən münaqişəyə 24 saat ərzində son qoyduğunu" qeyd edib.

"Biz məsələni təxminən 24 saat ərzində həll etdik, elə deyilmi? Bunun mühüm bir hissəsini qısa zamanda razılaşdırdıq. Düşünürəm ki, onlar artıq dost oldular. Bilmirəm bunu deməyə icazəm var, ya yox, amma məncə belədir. Düşünürəm ki, onlar dostlaşıblar, elə deyilmi? Bəli, bəli. Ayağa qalxın, ayağa qalxın. Bunlar iki möhkəm xarakterli insandır. Sizcə bu asan idi? Xeyr, heç də asan deyildi. Bunlar iki sərt, prinsipial, amma eyni zamanda, yaxşı insandır. Biz Oval Ofisdə idik və razılaşmaya doğru irəliləyirdik. Dedim ki, bəylər, bir az da yaxınlaşa bilərsinizmi? Amma onlar özlərini çox narahat hiss edirdilər. Axı 32 il bir-biri ilə döyüşmüşdülər. Yenə dedim: Bir az da yaxınlaşa bilərsinizmi? Bir saatdan sonra artıq yanaşı əyləşmişdilər. Biz razılaşma əldə etdik. Onlar qucaqlaşdılar. Sənədləri imzaladılar və biz iki çox mühüm ölkə arasında sülhə nail olduq - bunu heç vaxt unutmayacağam. Onlar əvvəlcə bir qədər tərəddüd içində idilər, amma sonda son dərəcə möhkəm mövqe nümayiş etdirdilər. Bununla fəxr edə bilərsiniz. Bu, şahid olmaq üçün çox gözəl bir mənzərə idi. Təşəkkür edirəm", - Tramp Azərbaycan və Ermənistan liderlərini nəzərdə tutaraq bildirib.

07_27 IYUl-QARA.qxd 2/19/2026 10:59 PM Page 6



# Ombudsman Vardanyan barəsində çıxarılan məhkəmə hökmü ilə bağlı verilən bəyanatlara münasibət bildirdi

***Azərbaycanın İnsan hüquqları müvəkkili (ombudsman) "Amnesty International" təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya üzrə direktoru Mari Strazersin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı cinayətlərdə təqsirli bilinərək məhkum olunmuş Ermənistan vətəndaşı Ruben Vardanyan barəsində çıxarılan məhkəmə hökmü ilə əlaqədar bəyanatına münasibət bildirib.***




"Unikal" xəbər verir ki, açıqlamada deyilir: "Bakı Hərbi Məhkəməsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyan barəsində cinayət işi üzrə beynəlxalq məhkəmə təcrübəsinə tam uyğun şəkildə açıq məhkəmə prosesləri keçirilib, məhkəmə prosesində təqsirləndirilən şəxs, onun müdafiəçisi, zərərçəkmiş şəxslər, onların hüquqi varisləri və nümayəndələri sərbəst şəkildə iştirak edib, məhkəmənin gedişatı mediada geniş şəkildə işıqlandırılıb. Yekunda R.Vardanyan ittiham edildiyi cinayətlərdə təqsiri tam sübuta yetirilərək məhkəmə tərəfindən qəti olaraq 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.

Beynəlxalq insan hüquqları hüququnun müddəaları və beynəlxalq məhkəmə təcrübəsinə tam uyğun şəkildə keçirilmiş məhkəmə prosesinin yekunu olaraq məhkəmə tərəfindən Ruben Vardanyan barəsində çıxarılmış hökmlə əlaqədar "Amnesty International" beynəlxalq qeyri-hökumət təşkilatı rəsmisinin yaymış olduğu bəyanat istər hüquqi, istərsə də mənəvi baxımdan yanlış, qeyri-obyektiv və qərəzlidir.

Belə ki, bəyanatda irəli sürülən iddialar, səsləndirilən ifadələr BMT Nizamnaməsinin və digər beynəlxalq hüquqi sənədlərin tələbləri ilə tam ziddiyyət təşkil edir, İkinci Dünya müharibəsində sülh və bəşəriyyət əleyhinə cinayətlər törətmiş şəxslərlə eyni statusa malik şəxslər müdafiə altına alınır, 30 ildən artıq bir müddətdə azərbaycanlılara qarşı törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri barədə hər hansı bir fikir bildirilmir.

Adıçəkilən təşkilatın sərgilədiyi yanaşma beynəlxalq qeyri-hökumət təşkilatları üçün zəruri olan obyektivlik, balanslılıq və peşəkar etika prinsiplərinə ziddir və bəyanatın qeyri-obyektivliyini ehtiva edir.

"Amnesty International" təşkilatı rəsmisinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər ağır cinayətlər törətməkdə ittiham olunan bir şəxsin "müdafiəsi" məqsədilə Azərbaycana qarşı bu cür ittihamların irəli sürülməsi təşkilatın qərəzli mövqeyini, ölkəmizə qarşı yürüdülən ikili standartları bir daha nümayiş etdirir. Belə selektiv yanaşma və faktların kontekstdən çıxarılması həmin qurumun fəaliyyətində obyektivlikdən uzaqlaşdığını göstərir və bu, təşkilatın hansı mənbələrdən maliyyələşdirildiyi və hansı siyasi təsirlər altında fəaliyyət göstərdiyi məsələsini yenidən gündəmə gətirir.

Hüquqi baxımdan vurğulanmalıdır ki, Ruben Vardanyan barəsində irəli sürülmüş ittihamlar həm Azərbaycan Respublikasının milli qanunvericiliyinə, həm də beynəlxalq hüquq normalarına uyğun olaraq ağır və xüsusilə təhlükəli cinayətlər kateqoriyasına aiddir. Cinayət təqibi konkret sübutlara və hüquqi faktlara əsaslanıb və məhkəmə araşdırması qanunvericiliyin tələblərinə uyğun şəkildə həyata keçirilib.

Bütün istintaq və məhkəmə prosesi zamanı təqsirləndirilən şəxsin müdafiə hüquqları tam təmin edilib. Şəxsin vəkillə təmini, müdafiə mövqeyini hazırlaması və məhkəmə prosesində iştirak imkanları qanunvericiliyin və beynəlxalq standartların tələblərinə uyğun təşkil olunub. Ombudsman Aparatının əməkdaşları məhkəmə proseslərində iştirak edərək təqsirləndirilən şəxsin hüquq və azadlıqlarının təmini vəziyyətini bilavasitə müşahidə ediblər.

Bununla yanaşı, Ombudsmanın Milli Preventiv Qrupu (MQP) tərəfindən təqsirləndirilən ermənişsilli şəxslərlə, o cümlədən Ruben Vardanyanla görüşlər keçirilib, onların saxlanma şəraiti və rəftar məsələləri davamlı monitorinq edilib. Bu monitorinqlər beynəlxalq standartlara uyğun həyata keçirilib, şəxsin fundamental hüquq və azadlıqlarının təmin olunması vəziyyəti daim diqqətdə saxlanılıb. Ombudsman Aparatının əməkdaşları tərəfindən həyata keçirilən başçəkmələrdə təqsirləndirilən ermənişsilli şəxslərə, o cümlədən R.Vardanyana öz ana dilində hüquqları izah edilib, MPQ-nin həkim üzvü tərəfindən səhhətlərinin mövcud vəziyyəti yoxlanılıb, onlara istəklərinə uyğun müvafiq nəşr vəsaitləri və öz ana dillərində qanunvericilik aktları təqdim olunub.

"Amnesty International" təşkilatı rəsmisinin bəyanatında hüquqi aspektlərdən kənara çıxılaraq məsələyə siyasi çalar verilməsi, eləcə də təsdiqlənməmiş iddiaların fakt kimi təqdim edilməsi həmin təşkilatın Azərbaycana qarşı qərəzli mövqeyini bir daha nümayiş etdirir.

"Amnesty International" beynəlxalq qeyri-hökumət təşkilatını qərəzli və selektiv yanaşmadan imtina etməyə, hüquqi proseslərə siyasi çalar verməkdən çəkinməyə və insan hüquqlarının müdafiəsinə həqiqətən obyektiv, balanslı və peşəkar prinsiplər əsasında xidmət etməyə çağırırıq.

Beynəlxalq hüquq müdafiə fəaliyyəti yalnız faktlara, hüquqa və ədalətə söykəndiyi halda legitim və inandırıcı ola bilər".

# Azərbaycanda üç vəkil cəzalandırıldı



***2026-cı il fevralın 18-də Azərbaycan Respublikası Vəkillər Kollegiyasının (VK) Rəyasət Heyətinin növbəti iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclası giriş sözü ilə açan Kollegiyanın sədri Anar Bağırov Rəyasət Heyətinin cari fəaliyyəti, son dövrdə həyata keçirilmiş tədbirlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat verib.

Gündəliyə uyğun olaraq bir vəkilin dövlət qulluğunun xüsusi növünə xidmətə qəbul edilməsi ilə əlaqədar vəkillik fəaliyyətinin dayandırılması məsələsinə baxılıb. Həmçinin bəzi vəkillərin vəkil kabineti yaratmaları, Vəkil bürolarının fəaliyyət göstərdikləri ünvanların dəyişdirilməsi, eləcə də digər vəkil qurumlarına keçməsi ilə bağlı müraciətləri müzakirə olunaraq müvafiq qərarlar qəbul edilib.

Bundan əlavə, iclasda "Dövlət hesabına göstərilən hüquqi yardıma görə haqqın Azərbaycan Respublikasının Vəkillər Kollegiyası tərəfindən vəkillərə ödənilməsi prosedurları üzrə sənədləşmə işlərinin aparılması barədə" Təlimata dəyişiklik edilməsi məsələsinə baxılıb, habelə Vəkil büroları və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən 2025-ci ildə hüquqi yardım göstərilməsi ilə əlaqədar fəaliyyətlərinin illik statistik hesabatı təhlil olunub. Aparılan müzakirələr və təqdim edilən məlumatlar əsasında Rəyasət Heyəti tərəfindən müvafiq qərarlar qəbul edilib.

İclasın davamında Vəkillərin İntizam Komissiyasının rəylərinə baxılıb. Rəyasət Heyətinin müvafiq qərarları ilə yol verdikləri intizam pozuntularına görə 1 vəkilin fəaliyyəti müəyyən müddətə dayandırılıb, 1 vəkilə xəbərdarlıq tətbiq edilib, 1 vəkil isə cərimələnib.

# Xocalının Xanabad kəndinə ilk köç olub



***Fevralın 19-də Xocalı rayonunun Xanabad kəndinə köç karvanı yola salınıb.***

"Unikal" xəbər verir ki, Xanabad kəndinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Bu mərhələdə Xanabad kəndinə 154 nəfərdən ibarət 38 ailəyə köçürülüb.

Köçürülən ailələrə mənzillərin açarları təqdim edilib. Mərasimdə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikasının Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

# Ruslan Eyyubovun həbs müddəti uzadıldı

***Siqaret qaçaqmalçılığı ilə bağlı başlanmış cinayət işi üzrə həbs edilən "Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı" ASC-nin rəhbəri Ruslan Eyyubovun həbs müddəti uzadılıb.***

"Unikal" Apa-ya istinadən xəbər verir ki, onunla bağlı qətimkan tədbirinin müddətinin uzadılması barədə istintaq orqanı tərəfindən verilən təqdimata Binəqədi Rayon Məhkəməsində baxılıb və qərar qəbul edilib.

Qərara əsasən, təqsirləndirilən Ruslan Eyyubovun barəsində seçilmiş həbs qətimkan tədbiri 3 ay müddətinə uzadılıb.

Qeyd edək ki, təqsirləndirilən şəxs Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanan cinayət işi üzrə saxlanılıb. Ötən ilin dekabr ayında barəsində 2 ay müddətə həbs qətimkan tədbiri seçilib.

Ona Cinayət Məcəlləsinin 206.4. (Qaçaqmalçılıq, mütəşəkkil dəstə tərəfindən törədildikdə, 213-1.2.2, 213-1.2.3-ci (Aksiz markası ilə markalanmalı olan malları marka olmadan və məcburi nişanlama ilə nişanlanmalı olan malları nişanlanmadan satma, satış məqsədilə saxlama, istehsal binasının hüdudlarından kənara çıxarma və ya idxal etmə, malların nağd qaydada alqı-satqısı təkrar törədildikdə), 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham elan olunub.

Ruslan Eyyubov bir qədər əvvəl Dövlət Gömrük Komitəsinin Dəniz Nəqliyyatı və Enerji Resursları Baş Gömrük İdarəsinin rəisi vəzifəsindən azad edilmiş Həsən Eyyubovun qardaşıdır.

07_27 IYUl-QARA.qxd 2/19/2026 10:59 PM Page 7





## Nazir onlara yüksək vəzifə verdi

***Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevin əmrləri ilə nazirlik sistemində yeni kadr təyinatları həyata keçirilib.***

"Unikal" Bakupost.az-a istinadən xəbər verir ki, İlkin Məmmədov Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatının İqtisadiyyat şöbəsinin müdiri, Elnur Əliyev və Arif Ataxanlı DOST Agentliyinin sədrinin müavinləri, Əlişah Kövsərov Sosial Xidmətlər Agentliyinin sədrinin müavini, Elşən Mahmudov Dövlət Məşğulluq Agentliyinin sədrinin müavini təyin ediliblər.

İlkin Məmmədov 1988-ci ildə doğulub. Sumqayıt Dövlət Universitetində iqtisadçı-menecer ixtisası üzrə bakalavr, Azərbaycan Dövlət İqtisad Universitetində biznesin təşkili və idarə edilməsi ixtisası üzrə magistr təhsili alıb. Hazırda təhsilini İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutunda "Daxili fiskal siyasət və dövlət maliyyəsi" ixtisası üzrə fəlsəfə doktoru proqramında davam etdirir. Ötən dövrdə özəl sektorda, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində, İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzində, 2021-ci ildən DOST Agentliyində müxtəlif vəzifələrdə, hazırkı vəzifəsinə qədər Agentliyin sədrinin müavini vəzifəsində çalışıb.

Elnur Əliyev 1979-cu ildə doğulub. Bakı Dövlət Universitetində beynəlxalq hüquq ixtisası üzrə bakalavr və magistr təhsili alıb. Ötən dövrdə özəl sektorda, vergi sahəsində, 2018-ci ildən Dövlət Məşğulluq Agentliyində müxtəlif vəzifələrdə, hazırkı vəzifəsinə qədər Agentliyin Mərkəzi Monitorinq və Qiymətləndirmə Filialının müdiri vəzifəsində çalışıb.

Arif Ataxanlı 1990-cı ildə doğulub. Sumqayıt Dövlət Universitetinin ümumi iqtisadiyyat ixtisası üzrə bakalavr pilləsini bitirib. Ötən dövrdə özəl sektorda, Dövlət Sərhəd Xidmətində, 2021-ci ildən DOST Agentliyində müxtəlif vəzifələrdə, hazırkı vəzifəsinə qədər DOST Agentliyində departament müdiri vəzifəsində çalışıb.

Əlişah Kövsərov 1975-ci ildə doğulub. Bakı Avrasiya Universitetində ümumi iqtisadiyyat ixtisası üzrə bakalavr təhsili alıb. Ötən dövrdə Nazirlik sistemində müxtəlif vəzifələrdə, hazırkı vəzifəsinə qədər Sosial Xidmətlər Agentliyində departament müdiri vəzifəsində çalışıb.

Elşən Mahmudov 1979-cu ildə doğulub. Azərbaycan Texniki Universitetində mühəndis iqtisadiyyatı ixtisası üzrə bakalavr, mühəndis biznesi və menecment ixtisası üzrə magistr təhsili alıb. Ötən dövrdə rabitə sahəsində, Teleradio İstehsalat Birliyində, İqtisadiyyat Nazirliyində, Dövlət Sosial Müdafiə Fondunda (DSMF) müxtəlif vəzifələrdə, hazırkı vəzifəsinə qədər DSMF sədrinin müşaviri vəzifəsində çalışıb.

# Sənədsiz evlərlə bağlı yeni qərar nə vəd edir?

## Ramil Osmanlı: "Əmlak amnistiyası" o halda olardı ki, heç olmasa bu qərar nəticəsində mövcud sənədsiz evlərin ən azı 40-50 faizi sənədləşərdi"

***Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı "Unikal"a müsahibə verib. O, Nazirlər Kabinetinin son qərarının sənədsiz evlər məsələsinə necə təsir edəcəyindən, hazırda mənzil bazarında qiymətlərin necə dəyişdiyindən, alıcıların bina, yoxsa fərdi evlərə üstünlük verməsindən və başqa məsələlərdən danışıb.***

***-Fevralın 9-da Nazirlər Kabineti "Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları"nda dəyişiklik edib. Qərara əsasən, hüquqların dövlət qeydiyyatına alınması üçün təqdim edilən sənədlərlə torpağın kateqoriyası dövlət torpaq kadastrında saxlanılan məlumatlara uyğun gəlmədikdə qeydiyyat orqanının vəzifəli şəxsləri tərəfindən 15 iş günü müddətində yerquruluşu sənədlərinin təhlili yolu ilə araşdırma aparılacaq. Bu dəyişiklik sənədsiz evlərin sənədləşdirilməsi üçün hansı imkanlar yaradacaq?***

-Bu dəyişiklik sırf texniki məsələdir. Əvvəl müddət yox idi. Qərarda da bu məsələ qeyd olunub. Müddət nəzərdə tutulmadığı üçün sənəd gedib aylarla Daşınmaz Əmlakın Kadastrı və Reyestri İdarəsində qalırdı. İndi qərardakı dəyişikliyə görə, 15 gün müddət müəyyən olunub. Həmin müddətdə qurum yer quruluşu ilə bağlı araşdırmanı aparır, torpağın vətəndaşa aid olub-olmadığını müəyyən edir. Əgər müəyyən edirsə, buna dair rəy verir və sənəd təqdim edir. Bundan sonra sənədlər qeydiyyata gedir. Müəyyən etmirsə, bununla bağlı əsaslandırılmış imtina məktubu verir və müayinə aktına əlavə olunur. Bunun sənədsiz evlərə aidiyyəti yoxdur. Əgər sənədsiz evlərin sənədləşdirilməsi ilə bağlı vahid qərar olmasa, ayrı-ayrı normativ hüquqi aktlara, Nazirlər Kabinetinin qərarlarına, sərəncamlarına və s. fərmanlara müəyyən əlavələr etməklə bu prosesi köklü şəkildə həll etmək mümkün olmayacaq. Hesab edirəm ki, bunun "əmlak amnistiyası" kimi təqdim olunması doğru yanaşma deyil. "Əmlak amnistiyası" o halda olardı ki, heç olmasa bu qərar nəticəsində mövcud sənədsiz evlərin ən azı 40-50 faizi sənədləşərdi.

***-Bu il sənədsiz evlərlə bağlı məsələ öz həllini tapa bilərmi?***

-Hər il üçün belə gözləntilər olur və yenə də var. Artıq bu məsələyə o qədər də optimist yanaşmıram. Elektron sistem yaradılır, müzakirələr gedir, müəyyən ilkin sənədlər, anket formaları hazırlanır, xarici təcrübə öyrənilir və s. Amma problem həllini tapmır. Bu mənada o qədər də optimist düşünə bilmirəm.

***-Mənzil bazarındakı qiymətlər hər zaman aktualdır. Hazırda əmlak bazarında qiymətlərdə hansı dəyişikliklər var və ya gözlənilir?***

-Hələki ciddi, nəzərəçarpacaq qiymət artımları müşahidə olunmur. Qiymət artımlarına nisbi meyllər var. Amma bunu daşınmaz əmlak bazarı üçün qiymət artımı kimi xarakterizə etməyin tərəfdarı deyiləm. Müxtəlif ərazilərdə daha çox dəyəri 200-250 min manatdan aşağı olan evlərdə nisbi artım var. Qiyməti 350-400 min manatdan yuxarı olan evlərdə ümumiyyətlə artım müşahidə olunmur. Hətta bəzi ərazilərdə bahalı evlərin qiymətində azalmalar müşahidə edilir. Tələbat yüksəkdir. Aparılan tədqiqatlar bunu deməyə əsas verir. Eyni zamanda qonşu və digər ölkələrlə müqayisə aparsaq, Azərbaycanda istər yaşayış, istərsə də qeyri-yaşayış sahəsinə tələbat həmişə yüksək olub. Sadəcə biz bəzən tələbatla tələbi qarışdırırıq. Tələbatın yüksək olması tələbin yüksək olması demək deyil. Tələb o zaman yüksək olur ki, iqtisadi fəallıq yüksək olur, bazara pul axınları artır, alıcı sayı çoxalır, bütün makroiqtisadi göstəricilərdə artım qeydə alınır. Yəni, potensial alıcı real alıcı kütləsinə çevrilir. Əlində pul var, bazara çıxıb ev axtarır. Bu, tələbdir. Məsələn, mənim evə ehtiyacım var, pulum yoxdur, ev ala bilmirəm. Bu isə tələbatdır. Tələbatım var, amma pulum olmadığı üçün tələbatı tələbə çevirə bilmirəm. Bu mənada bəzən onu qarışdırdığımıza görə bizə elə gəlir ki, tələbat yüksəkdir deyə qiymət yüksək olmalıdır. Xeyr, yalnız tələb yüksələndə qiymət artır. Bu gün Azərbaycanda təqribən hər 3 nəfərdən birinin evə ehtiyacı var. Həmçinin, qeyri-yaşayış sahəsinə də kifayət qədər ehtiyac var.

***-Alıcılar fərdi, yoxsa bina evlərinə üstünlük verirlər?***

-Hər ikisinə tələbat yüksəkdir. Prosesin gedişi göstərir ki, orta statistik vətəndaşlar bu gün köhnə binalara daha çox maraq göstərirlər. Amma alıcılıq, maddi imkanları yüksək olan təbəqə təbii ki, yeni tikililərə üstünlük verirlər. Amma bu imkanlardan məhrum olan şəxslər daha çox fərdi yaşayış evlərinə üstünlük verirlər. Təbii ki, fərdi yaşayış evinə üstünlük verənlərin bir hissəsi bina evlərində müxtəlif səbəblərdən yaşamaq istəməyənlərdi. Sırf tələb tərəfdən məsələyə baxsaq, mənzildə yaşamaq istəyənlərin sayı fərdi yaşayış evində yaşamaq istəyənlərdən təqribən 2 dəfə çoxdur.

***-Həmişə qəbul imtahanlarından sonra evlərin alınmasına və ya kirayəyə tələbat artır. Qarşıdakı dövrdə də belə olacaq?***

-Bu daha çox o zaman baş verir ki, bütün imtahanlar bitir, qəbul prosesi başa çatır, artıq kodlaşdırma həyata keçirilir və bildiriş gəlir ki, imtahan verən şəxs ali məktəb tələbəsidir. Bu bilinəndən sonra vətəndaşlar ev üçün müraciətə başlayırlar. Real vəziyyət tam olaraq ifadə olunur ki, filan şəxslər qəbul olub və regiondan paytaxta köçəcəklər. Təbii ki, bu zaman kirayə mənzil aktuallaşır. Valideynlər çalışır ki, övladı çox əziyyət çəkməsin. İmkanlarına uyğun olaraq təhsil alacağı universitetə yaxın əraziləri seçirlər. Bu alınmadığı təqdirdə ictimai nəqliyyatla daha sıx təmin olunan əraziləri seçirlər ki, uşaqlar yollarda vaxt itirməsinlər. Bu da təqribən avqust ayının birinci ongünlüyündən sonra baş verir.



***-Avtomobillərin qiyməti həmişə insanların diqqətində olan məsələlərdəndir. Hazırda avtomobil bazarında qiymətlər necə dəyişir?***

-Yeni avtomobillərin qiymətində artımlar müşahidə olunur. Bazarda tendensiya dəyişir. İlbəil bazar daha çox yenilənməyə doğru gedir. Utilizasiya ilə bağlı tələblər, eyni zamanda vətəndaşların iqtisadi imkanlarının ilbəil qismən yaxşılaşması və s. məsələlərə görə, həmçinin avtomobil kreditləri ilə bağlı faizlərin kifayət qədər optimallaşması, azaldılması, cəlbedici şərtlərin təklif olunması tədricən avtomobil bazarının yenilənməsinə şərait yaradır. Əvvəllər 90-cı illərin avtonəqliyyat vasitələrini ölkəyə idxal etmək mümkün idisə, indi artıq mümkün deyil. Qəbul olunan avro standartlar, mövcud qanunvericiliyin tələbləri və s. amillər get-gedə bunun qarşısını alır. Qeyd etdiyim məsələlər də bazarın tədricən yenilənməsinə, yeni avtomobillərə marağın artmasına gətirib çıxarır.

***Anar Kəlbiyev***

07_27 IYUl-QARA.qxd 2/19/2026 10:59 PM Page 8



# Zaur Əliyevin də başı üstündə “qara buludlar” dolaşır

## TƏBİB-in icraçı direktorundan sonra növbə İcbari Tibbi Sığorta Agentliyinin rəhbərindədir - İttihamların sayı-hesabı yoxdur!

***Yola salmaq üzrə olduğumuz həftə Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru Vüqar Qurbanovun vəzifəsindən azad edilməsindən sonra gözlər İcbari Tibbi Sığorta Agentliyinin (İTSA) rəhbəri Zaur Əliyevə yönəlib. Belə ki, qarşıdakı günlərdə onun da görəvindən kənarlaşdırılacağı gözlənilir.***

İTSA rəhbərinin postundan kənarlaşdırılması üçün isə çox sayda səbəblərin olduğu bildirilir. Bu sırada icbari tibbi sığorta sistemində özəl tibb müəssisələrinə göndərişlərin faktiki dayandırılması və vətəndaş hüquqlarının kütləvi pozulması hallarının acınacaqlı hal alması, insanlara nə seçim imkanının, nə də keyfiyyətə zəmanət verilməsi ilk sırada dayanır.

Bir müddət öncə “Teleqraf.az” məlumat yaymışdı ki, sığorta haqqını ödəyən vətəndaşa deyilir ki, ”sən pulu ödə, amma həkimi biz seçəcəyik”. Əgər vətəndaş özəl klinikadakı həkimə güvənirsə, İTSA ona bu imkanı birbaşa vermir. Bu, dolayısı ilə rəqabət mühitinin pozulması kimi dəyərləndirilə bilər. Çünki dövlət resursu (sığorta fondu) vasitəsilə dövlət xəstəxanalarına süni üstünlük verilir, özəl sektor isə kənarda qalır. Hüquqi olaraq, tibbi xəta zamanı məsuliyyəti həkim və ya tibb müəssisəsi daşıyır. Lakin mənəvi və inzibati baxımdan, əgər sistem vətəndaşa alternativ buraxmırsa, deməli, sistemin keyfiyyətinə də dövlət birbaşa zəmanət verməlidir. Hazırda vətəndaşların narazılığı ondan qaynaqlanır ki, yuxarıda da vurğulandığı kimi, seçim imkanı da, keyfiyyətə zəmanət də yoxdur.

Ümumiyyətlə vay o günə ki, vətəndaş özəl klinikada işləyən həkimin yanına sığorta ilə getmək istəsin. Əgər pasiyent özəl klinikada sığorta ilə müayinə, müalicə və əməliyyat olunmaq istəyirsə (haqqıdır və bunun üçün hər ay maaşından tutulur) mütləqdir ki, həftələrlə yağışa, qara, soyuğa, küləyə baxmadan, xəstə və ya əlil halıyla yollarda qalsın, sığorta verən dövlət xəstəxanalarında və poliklinikalarda 4-6 saat növbə gözləsin.

Başqa bir iddiaya görə, İTSA TƏBİB-lə əlbir olaraq yalnız bu iki qurumun rəhbərlərinə yaxın özəl klinikalara göndərişlər verir. Bu isə ciddi qanun pozuntusudur.

Ümumiyyətlə, Vüqar Qurbanovla Zaur Əliyevin sıx və qaranlıq əlaqələri ilə bağlı son günlər də müxtəlif fikirlər ortaya atılmaqdadır. Məsələn, 2022-2023-cü illərdə Yeni Klinikanın əməkdaşı olmuş İlham Aslanov ilginc iddia ortaya atıb. “Heç kəsə sirr deyil ki, TƏBİB sədri Vüqar Qurbanovun sədri Zaur Əliyevlə sıx əlaqələri mövcuddur. Maraqlıdır, görəsən, TƏBİB və İTSA tərəfindən son 3 il ərzində elan etdikləri və həyata keçirdikləri satınalmalar üzrə kotirovka sorğuları, tenderlər də yoxlanılıbmı? Bu satınalma əməliyyatlarına cəlb edilən şirkətlər və təşkilatlar ilə əlaqələri araşdırılıbmı? Kimlərdir və kimlərin adamlarıdır? Maliyyə Nazirliyi ötən il yoxlamalara başladı, bir sıra qanun pozuntuları aşkar etdi. Bu barədə ölkə mediası kifayət qədər yazıb. Maliyyə tərəfi araşdırıldı, aydındır. Bəs görəsən hüquq mühafizə orqanları bu məsələyə hansı hüquqi qiymət verəcək?”, - o özünün “Feysbuk” hesabında yazıb.

“Unikal”a müəyyən mənbələrdən daxil olan məlumatda Zaur Əliyevin İTSA rəhbəri postundan getmə ehtimalının yüksək olduğu, hətta onun yerinə namizədlərin də artıq müəyyənləşdiyi deyilir. Belə namizədlərdən birinin hazırda nazir müavini postunda işlədiyi vurğulanır. Eyni zamanda, İTSA-da rəhbər dəyişikliyi ilə kifayətlənilməyəcəyi, eynilə TƏBİB-də olduğu kimi korrupsiya araşdırmalarının aparılacağı, prosesin hətta cinayət məsuliyyəti həddinə çata biləcəyi yönündə də iddialar var.

Bundan başqa, TƏBİB və İTSA-nın gələcək taleyi ilə bağlı da fərqli ssenarilər ortaya çıxmağa başlayıb. Bunlardan biri - “Baku-post”un yazdığına görə - daha radikal struktur qərarlarının verilməsi - TƏBİB-in Səhiyyə Nazirliyinə birləşdirilməsi, İcbari Tibbi Sığorta Agentliyinin isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyinə keçirilməsidir. Belə bir ehtimal hələ bir müddət əvvəl - hər iki qurumda Hesablama Palatasının apardığı auditin nəticələri ortaya çıxarkən yaranmışdı. Belə ki, Palatanın İcbari Tibbi Sığorta Fondunun 2023-2024-cü illərdəki gəlir və xərclərinin icrasının,



eləcə də sərbəst vəsaitinin idarə olunmasına dair ötən ayın əvvəllərində açıqlanan hesabatında açıq-aydın qeyd olunurdu ki, göstərilən dövr ərzində İcbari Tibbi Sığorta Fondunun büdcəsinə nəzərdə tutulmayan istiqamətlərdən vəsait daxil olub, eləcə də qanunsuz olaraq müxtəlif istiqamətlərə vəsait yönəldilib. Bəzi sahələrə isə nəzərdə tutulduğundan artıq vəsait xərclənib. Hesabatda bu əməliyyatlar zamanı qanunvericiliyin tələblərinin açıq-aşkar pozulduğu xüsusi vurğulanırdı.

Bir sözlə, həm ötən ilin avqustunda TƏBİB-də Maliyyə Nazirliyinin ən yaxşı mütəxəssislərinin cəlb edildiyi yoxlamaların, həm də İTSA-da Hesablama Palatasının apardığı auditlərin nəticələri ciddi mətləblərdən xəbər verməklə, bir reallığı ortaya qoyurdu: TƏBİB və İTSA indiki rəhbərlərinin idarəçilik təfəkkürü ilə idarə oluna bilməz, ən yaxşı halda onların əvəzlənməsi, ən radikal formada isə sözügedən qurumların taleyi ilə bağlı yeni qərarların verilməsi qaçılmazdır. Üstəlik, hər iki qurumda korrupsiyanın kök saldığına dair iddiaların hüquqi müstəvidə araşdırılması da məqsədəuyğundur.

Bütün bunların fonunda isə indiki mərhələdə Zaur Əliyevin də Vüqar Qurbanovun ardınca yola salınması kifayət qədər ağlabatandır. Proseslərin sonrakı mərhələdə necə inkişaf edəcəyini isə zaman göstərəcək. Ona görə də tələsməyək və hələlik hadisələrin hansı istiqamətdə cərəyan edəcəyini izləməklə kifayətlənək.

***Sənan Mirzə***



# Agentlik yoxlama keçirdi, nöqsanlar aşkarlandı

***Xəbər verdiyimiz kimi, Qida Təhlükəsizliyi Agentliyi mütəmadi olaraq, risk əsaslı yanaşma çərçivəsində ölkəyə idxal olunan xam və istehlaka hazır palma yağları və palma yağı tərkibli qarışıq bitki yağları üzrə nəzarət tədbirlərini həyata keçirir. Eyni zamanda ölkəyə xam şəkildə idxal edilən palma yağlarının növbəti istehsal və emal mərhələlərində də nəzarətin təmin edilməsi məqsədilə yerli müəssisələrdə dövlət nəzarəti tədbirlərini icra edir.***

Agentlikdən ”Unikal”a verilən məlumata görə, aparılan yoxlamaların nəticələri barədə ictimaiyyət mütəmadi şəkildə məlumatlandırılır.

Növbəti belə nəzarət tədbiri ”Alda” MMC-nin istehsal müəssisəsində keçirilib. “Alda” şirkətinin Rusiya Federasiyasından idxal etdiyi “Pihevıe İnqredientı” istehsalçı müəssisəsinə məxsus “EFKO” əmtəə nişanlı palma yağında laborator müayinə zamanı kimyəvi emal çirkləndiricisi (3-monoxlorpropan-1,2-diol) müəyyən edilib. Həmçinin bu məhsulun şirkət tərəfindən spred yağlarının istehsalında xammal kimi istifadə edildiyi aşkarlanıb. Hazır məhsullardan götürülmüş nümunələrin sınaq nəticəsində də eyni uyğunsuzluqlar müəyyən edilib.

Bununla əlaqədar sahibkar barəsində inzibati tədbir görülüb, məhsul partiyalarının satışının və müəssisədə spred yağlarının istehsalının dayandırılması barədə məhdudlaşdırıcı qərar qəbul edilib.

Qeyd edək ki, xammal yağının istehsal olunduğu müəssisədən ixracın dayandırılması barədə Rusiya Federasiyasının aidiyyəti qurumuna müraciət olunub.

# Azərbaycanda tələbə direktor təyin edildi

***Sabirabad Peşə Liseyinə yeni direktor təyin edilib.***

”Unikal” xəbər verir ki, bu barədə Peşə Təhsili üzrə Dövlət Agentliyi (PTDA) məlumat yayıb. Bildirilib ki, bu vəzifəyə Elçin Səmədov gətirilib.

Qeyd edək ki, E.Səmədov 2024-cü ildən Azərbaycan Texniki Universitetində biznesin idarə edilməsi ixtisası üzrə magistratura səviyyəsində təhsil alır.

# Zaur İbrahimov sədr müavini yox, məsləhətçi təyin edilib - RƏSMİ

***Bu gün mətbuatda Zaur Kamal oğlu İbrahimovun Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) İdarə Heyətinin sədrinin müavini vəzifəsinə təyin edilməsi ilə bağlı məlumat yayılıb.***

AAYDA-dan ”Unikal”ın sorğusuna cavab olaraq bildirilib ki, Z.İbrahimov sədr müavini vəzifəsinə təyinat almayıb. O, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti Sədrinin inzibati idarəetmə məsələləri üzrə məsləhətçisi təyin edilib.

Qeyd edək ki, Z.İbrahimov bu təyinatadək Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədr müavini olub.

***Murad İbrahimli***

07_27 IYUl-QARA.qxd 2/19/2026 10:59 PM Page 9





# İcra başçısı bir gündə 14 nəfəri işdən çıxardı

***Ağsu Rayon İcra Hakimiyyətinin 14 əməkdaşı vəzifəsindən azad edilib.***

"Unikal" Oxu.az-a istinadən xəbər verir ki, icra hakimiyyətində aparılan struktur dəyişikliyi ilə əlaqədar həmin şəxslərin dövlət qulluğuna xitam verilib. Bu barədə icra başçısı Rövşən Bağırov əmr imzalayıb.

Əmrə əsasən, icra hakimiyyətinin aşağıda adları çəkilən əməkdaşları vəzifələrini itiriblər:

1. İntiqam Əhmadov - Ağsu RİH başçısının Ərəbuşağı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin baş məsləhətçi - baş mühasibi
2. Əhməd Hüseynov - Ağsu RİH başçısının Kalva kənd inzibati ərazi üzrə nümayəndəliyinin baş məsləhətçi - baş mühasibi
3. Elxan Quliyev - Ağsu RİH başçısının Gəgəli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin baş məsləhətçi - baş mühasibi
4. Yusif Xalıqov - Ağsu RİH başçısının Bozavand kənd inzibati ərazi da üzrə nümayəndəliyinin baş məsləhətçi - baş mühasibi.
5. Sail Baloğlanov - Ağsu RİH başçısının Kəndoba kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin baş məsləhətçi - baş mühasibi
6. Elmir Məmmədov - Ağsu RİH başçısının Ərəbsarvan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin baş məsləhətçi - baş mühasibi
7. Elşən Məhərrəmov - Ağsu RİH başçısının Ləngəbiz kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin baş məsləhətçi - baş mühasibi
8. Elnur Səlimov - Ağsu RİH başçısının Çiyni kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin baş məsləhətçi - baş mühasibi
9. Cahangir Babaxanov - Ağsu RİH başçısının Rəhimli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini
10. Teymur Əliyev - Ağsu RİH başçısının Ərəbmehdibəy kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin baş məsləhətçi - baş mühasibi;
11. Fuad Kərimli - Ağsu RİH başçısının Padar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin baş məsləhətçi - baş mühasibi
12. Taryel Qasımov - Ağsu RİH başçısının Bico kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin baş məsləhətçi - baş mühasibi
13. Rəvan Ziyazadə - Ağsu RİH başçısının Muradlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin baş məsləhətçi - baş mühasibi
14. Fəxrəddin Rüstəmov - Ağsu RİH başçısının Xanbulaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin baş məsləhətçi - baş mühasibi

Məlumata görə, adıçəkilən şəxslər tutduqları vəzifədən azad edilib, başqa işlə təmin edilməyiblər.

# Ölkə üzrə pensiyalar tam ödəniləcək

***Bu gün ölkə üzrə pensiyalar tam ödəniləcək.***

"Unikal" xəbər verir ki, bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) məlumat yayıb. Bildirilib ki, sabah güzəştli şərtlərlə pensiya hüququna malik şəxslərin də pensiyaları ödəniləcək.

Qeyd edək ki, bu il yanvarın 1-dək təyin edilmiş bütün növ pensiyalar 9,3 faiz indeksləşdiriləräk artırılıb. Fevral ayının pensiyaları qeyd edilən artımlarla birgə ödəniləcək. Həmçinin indeksləşdirmə üzrə yanvar ayının artımı fevral ayının pensiyasına əlavə olunacaq.

# İşbazların Azərbaycan bazarlarında 5 manata satdığı zəhər!

## Azərbaycanda satılan İran istehsalı kərə yağları təhlükə saçır? - Şok iddialar

***Son dövrlər Azərbaycan bazarına İran istehsalı olan kərə yağlarının geniş şəkildə daxil olması müşahidə olunur. Ən əsası isə istehlakçılar arasında bu kərə yağlarının keyfiyyəti ilə bağlı ciddi şübhələr var. Xüsusilə sözügedən məhsulların konserogen maddələr daşıdığına dair iddialar dolaşır.***

Xatırladaq ki, konserogen maddələr - orqanizmə təsir etdikdə xərçəng və başqa şişlər əmələ gətirir. "Unikal" haqqında danışılan iddialara, ümumilikdə İran istehsalı olan kərə yağları ilə bağlı şübhələrə aydınlıq gətirməyə çalışıb.

### Bazarı "ovsunlayan" İran yağları

Qeyd edək ki, hələ 2024-cü il ərzində ölkəmizə ən çox yağın İrandan tədarük edildiyi aydın olmuşdu - 14,2 min ton. Üstəlik, ən ucuz yağın idxal edildiyi ölkə də İran idi. Bu ölkədən gətirilmiş yağın 1 kq-nın orta statistik dəyəri 8,27 manat olaraq hesablanmışdı.

Sözügedən statistikada İran hətta dünyanın ən böyük yağ idxalçısı Yeni Zelandiyanı vurub keçmişdi. Belə ki, 2024-cü il ərzində Yeni Zelandiyadan ümumən 5,3 min tondan çox yağ idxal edilmiş, orta idxal qiyməti isə 11,33 manat olmuşdu.

2025-ci ildə də kərə yağında əsas təchizatçı İran olaraq qalır. Bu ölkədən idxal 14.23 min tondan 8.62 min tona enərək 39% azalıb, dəyər isə 69.25 milyon dollardan 50.97-yə düşüb. Lakin orta qiymət 4.87 min dollardan 5.91-ə yüksəlib və 21.34% artıb. Yəni İran yağının qiyməti 2025-ci ildə 21,34% bahalaşıb.

Lakin daha önəmli olan adıçəkilən qonşunun istehsal etdiyi sözügedən məhsulun keyfiyyətinə dair suallar da çoxalıb. Xüsusilə İran istehsalı olan kərə yağlarının digər ölkələrdə istehsal edilən analoji məhsulla müqayisədə qiymətcə ucuzluğu əhali arasındakı şübhələri də gücləndirir.

### İran yağları niyə ucuzdur?

Bir müddət öncə sözügedən suala cavab olaraq iqtisadçı ekspert Akif Nəsirli qeyd edib ki, İranda kərə yağının ucuz olmasının səbəbi ölkədə enerji resurslarının və kənd təsərrüfatı xərclərinin aşağı olmasıdır. Onun sözlərinə görə, kənd təsərrüfatı məhsullarında yanacağın payı 25-40 faiz təşkil edir və İranda bu xərclər xeyli ucuzdur. Sitat: "İranda südün 1 kiloqramı təxminən 20 qəpikdir. Bu səbəbdən kərə yağının maya dəyəri 5 manata başa gəlir. Gömrük xərcləri əlavə edildikdən sonra belə, Azərbaycana 10-11 manata daxil olur. Amma bazarda bu yağlar 15-18 manata satılır. Buna görə də İran uzun illər Azərbaycanın əsas kərə yağı təchizatçısı olub" (musavat.com).

Maraqlıdır ki, ekspert İrandan gətirilən kərə yağlarının qatqısının az olduğunu da bildirib: "Mən özüm də İran yağı istifadə edirəm. Orijinal İran kərə yağları 200 qramlıq folqa qablaşdırmada olur. Əgər məhsul həmin qablaşdırmada deyilsə və başqa formada təqdim edilirsə, bu, şübhə doğura bilər".

### Dələduzluğun pik həddi: 5 manatlıq kərə yağı?!

Əsas məsələ isə son vaxtlar marketlərdə 5 manata satılan və İran məhsulu olduğu deyilən kərə yağlarıdır. Ekspertlər bildirirlər ki, həqiqi və keyfiyyətli kərə yağı bu qiymətə heç bir halda satıla bilməz.

Belə çıxır ki, biz süfrəmizə yağ adı ilə zəhər qoyuruq, orqanizmimizin müxtəlif ağır xəstəliklərə düçar olması üçün "yaşıl işıq" yandırırıq. İstər qida ekspertləri, istərsə də həkimlər həyəcan təbili çalaraq bildirirlər ki, keyfiyyətsiz ərzaqlar, o cümlədən yağ məhsulları uzunmüddətli dövrdə xərçəng riskini artırır.

Bir neçə ay öncə qida eksperti Asim Vəliyev yerli KİV-ə bildirmişdi ki, son dövrlər marektlərdə, dükanlarda ucuz qiymətə, üzərində farsca yazılar olan müxtəlif İran mənşəli qidaların sayı artıb (redaktor.az): "Bir çox hallarda İran mənşəli bəzi ucuz məhsullar bu standartlara cavab vermir. Məsələn, yağ məhsullarının bir hissəsi rəsmi yoxlamalardan keçmədiyi üçün onların tərkibində trans yağların miqdarı normadan artıq olur. Trans yağlar uzunmüddətli istifadədə damar tıxanması, ürək-damar xəstəlikləri kimi bir sıra sağlamlıq problemlərinə gətirib çıxara bilər. Bəzi hallarda bu yağlar təbii deyil, texnoloji yollarla ucuz xammalın hidrogenləşdirilməsi nəticəsində hazırlanır".



Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə ötən ay demişdi ki, İrandan gətirilən mallarla bağlı illərdir ciddi problem mövcuddur (milli.az): "Bu məhsulların üzərində məlumatlar insanların başa düşmədiyi fars əlifbası ilə yazılır. Bu isə istehlakçı hüquqlarının birbaşa pozulmasıdır. Bəzi biznes subyektləri bundan sui-istifadə edərək vaxtı keçmiş malları bazara çıxarır və istehlakçıları aldadır".

Ekspert dövlət qurumlarının, xüsusilə gömrük orqanlarının bu məsələdə kifayət qədər sinxron işləmədiyini də vurğulayıb. Nəzərə çatdırıb ki, gömrük orqanları qanun pozuntusu aşkar etdikdə məsuliyyəti başqa qurumların üzərinə atmamalı, müvafiq dövlət orqanları ilə birbaşa əlaqə saxlamalıdırlar.

Onun dediyinə görə, İrandan idxal edilən malların markalanmasında müəyyən düzəlişlər edilsə də, problem tam həllini tapmayıb.

Beləliklə, göründüyü kimi İrandan idxal edilən bir çox məhsulların, o cümlədən, kərə yağının keyfiyyəti ilə bağlı çox ciddi problem var. Görünən odur ki, bəzi işbazlar şəxsi ciblərini doldurmaq adına xalqın sağlamlığını ciddi şəkildə təhlükəyə atmaqdadır. Və aidiyyatı qurumların bütün bu şübhəli duruma müdaxiləsi, cəmiyyətdə yaranan suallara aydınlıq gətirməsi artıq taleyüklü zərurətdir.

***Sənan Mirzə***

# Sabiq icra başçısının adı növbəti qalmaqalda

## Milyonlarla manatlıq sərvəti olan Rauf Həbibov lüks sauna tikdirdiyi fəhlələrin əmək haqqını niyə vermir?

***Quba rayonunun keçmiş icra başçısı Rauf Həbibov Mərdəkan qəsəbəsində həyat yoldaşı üçün 2023-cü ildə inşa etdirdiyi lüks saunaya görə usta və fəhlələrin 53 min manatını ödəməkdən boyun qaçırıb.***

Şikayətçilər eks-icra başçısının müxtəlif əmlakları və bahalı avtomobillərinin olmasına baxmayaraq, kiçik bir işçi qrupunun əməyinə hörmət etmədiyini bildiriblər.

”Bütün işlər tamamlanıb, amma o bizim haqqımızı verməkdən boyun qaçırır”, - deyə orada çalışan fəhlə və qrup rəhbəri Ruslan Quliyev manset.az-a söyləyib.

Həbibovun mənzilləri və villaları ilə tanınan biri olduğunu vurğulayan fəhlələr, buna baxmayaraq, zəhmətləri qarşılığında heç bir haqq almadıqlarını qeyd ediblər: ”Bizim haqqımızı vermədiyi halda, heç bir çətinlik yaşamadan öz lüks həyatını davam etdirir”.



Rauf Həbibov isə açıqlamasında belə bir problemin olduğunu etiraf edib: ”Hazırda sistem altındayam. Mən bununla bağlı sizinlə əlaqə saxlayacağam”.

Lakin sabiq icra başçısı hələ də özü ilə bağlı yuxarıdakı ittihamlara aydınlıq gətirməyib.

Xatırladaq ki, bu, Rauf Həbibin son 8 ayda üzləşdiyi ikinci qalmaqaldır. Belə ki, ötən ilin yayında onun rəhbəri olduğu şirkətdə yarım milyon manatdan çox vergidən yayınma faktı aşkarlanmışdı. Həmin vaxt bildirilirdi ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi tərəfindən ”Kaspian Biznes Servisez” Məhdud Məsuliyyətli Cəmiyyətində (MMC) səyyar vergi yoxlaması həyata keçirilib. Səyyar vergi yoxlaması üzrə məsuliyyətə cəlbetmə qərarının nəticəsində şirkət barəsində 400.100,35 manat əlavə vergi, 200.050,18 manat maliyyə sanksiyası hesablanıb.

MMC-nin həmin vaxt Lokal Gəlirlər Baş İdarəsinə 338.298,8 AZN vergi borcu olduğu qeyd edilirdi.

O da bildirilirdi ki, nizamnamə kapitalı 20 manat olan ”Kaspian Biznes Servisez” MMC-nin qanuni təmsilçisi Həbibov Rauf Xeyrulla oğludur. Həmçinin onun ölkədən çıxışı müvəqqəti məhdudlaşdırılıb.

Xatırladaq ki, Rauf Həbibov 1 oktyabr 2007-ci ildən 2012-ci ilin mart ayınadək Quba Rayonu İcra Hakimiyyətinin başçısı olub. 2012-ci il mart ayının 1-də onun internetdə yayılan video-çıxışına etiraz olaraq Rayon İcra Hakimiyyətinin binası qarşısında etiraz keçirilib. Həmin videoda RİH başçısı qubalıların ünvanına bir sıra təhqirlər səsləndirib.

Məhz həmin ifadələrin ardından Qubada Rauf Həbibovun istefası tələbilə aksiya keçirilib. Aksiya toqquşmalar və zorakılıqla müşayiət olunub. İcra hakimiyyətinin yardımçı binaları və Rauf Həbibovun şəxsi evi yandırılıb.

Bu xoşagəlməz hadisələrin ardınca Həbibov vəzifəsindən uzaqlaşdırılıb. Üstəlik, o, hakim Yeni Azərbaycan Partiyasının (YAP) Quba rayon təşkilatının rəhbər orqanlarından xaric edilib. Belə ki, Həbibov YAP Quba rayon təşkilatının İdarə Heyəti və Şura üzvlüyündən çıxarılıb.

Məlum hadisələrdən hardasa 5 il sonra Qubanın sabiq icra başçısı ilk dəfə el arasına çıxdı. “2012-ci ildə evi yandırılan, rayondan qovulan keçmiş başçı Bakının Əmircan kəndində keçirilən yas mərasimində iştirak edib. R.Həbibovun doğma bacısının yas məclisinə gəldiyi və qohumları ilə görüşdüyü bildirilirdi. Məlum hadisələrdən sonra hücrəsinə çəkilən eks-başçı qohum-əqrəbası ilə də mütəmadi əlaqə saxlamırmış” deyə o zaman yerli KİV yazırdı.

“Lakin bacısının vəfatı ilə əlaqədar həm dəfn mərasimində, həm də hüzrdə iştirak edib. Bacısının rəhmətə getməsinə qədər isə qohumlardan heç kəslə əlaqəsi olmayıb. Məlumatda deyilir ki, R.Həbibov Qubaya rəhbərlik etdiyi dövrdə də qohumları ilə sıx təması olmayıb. Həmin olaylar isə onu yaxınlarından daha da uzaqlaşdırıb. Sabiq icra başçısının vəzifədən kənarlaşdırılmasından sonra uzun müddət işsiz qaldığı, lakin 2016-cı ildən Heydər Əliyev adına Dərin Dəniz Özülləri zavodunda işlə təmin olunduğu bildirilir” deyə ölkə mediası bildirirdi.

Ancaq bu xəbərlərdən sonra da Rauf Həbibovdan hər hansı səs-soraq çıxmadı. O, barəsində deyilənləri nə təsdiq, nə də təkzib elədi.

İndi isə belə məlum olur ki, öz qanunsuz davranışları ilə Qubada qalmaqallı hadisələrə rəvac verən, ardınca da “qeybə çəkilən”, həbs olunacağı proqnozlaşdırıldığı halda yalnız kreslosunu itirməklə canını qurtaran 60 yaşlı Həbibov aradan keçən təxminən 20 il ərzində öz biznesini qoruyub saxlamaqla və genişləndirməklə məşğul imiş. Üstəlik, dövlətə olan vergi borcunu ödəməyə can çəkirmiş. Bu da azmış kimi, lüks sauna tikdirdiyi fəhlələrin 53 min manatlıq haqqını ödəmək belə istəmirmiş!

Halbuki həmin məbləğ Həbibovun milyonlarla manatlıq sərvəti ilə müqayisədə “semiçka pulu” belə deyil.

Əlavə sözə ehtiyac yoxdur. Bu mənzərədən nəticə çıxarmağı oxucuların ixtiyarına buraxırıq...

***Sənan Mirzə***



# Tahir Budaqov rektorlarla görüş keçirdi

***Nəsimi Rayon İcra Hakimiyyətində rayon ərazisində fəaliyyət göstərən ali təhsil müəssisələrinin rəhbərləri ilə görüş keçirilib.***

”Unikal” xəbər verir ki, görüşdə Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla, Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli, Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Rüfət Əzizov, Bakı Qızlar Universitetinin rektoru Sevinc Rəhimova, Bakı Musiqi Akademiyasının prorektoru Yeganə Axundova, Azərbaycan-Fransa Universitetinin direktoru Vazeh Əsgərov və Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin direktoru Nazim Kazımov iştirak ediblər.

Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov çıxışında ali təhsil müəssisələrinin rayonun ictimai həyatında mühüm rol oynadığını vurğulayıb, gənclərin vətənpərvərlik ruhunda formalaşdırılması və onların sosial layihələrə cəlb olunmasının əhəmiyyətini qeyd edib. Bildirilib ki, icra hakimiyyəti tərəfindən həyata keçirilən sosial-iqtisadi və mədəni-kütləvi tədbirlərdə ali təhsil ocaqlarının fəal iştirakı xüsusi önəm daşıyır.

Görüşdə iştirak edən rektorlar çıxış edərək rəhbərlik etdikləri ali təhsil müəssisələrində həyata keçirilən elmi, tədris və sosial layihələr barədə məlumat verdilər. Onlar tələbələrin ictimai fəallığının artırılması, könüllülük hərəkatının genişləndirilməsi, elmi-praktik konfransların, maarifləndirici və mədəni-kütləvi tədbirlərin birgə təşkili istiqamətində əməkdaşlığın əhəmiyyətini vurğuladılar.

Çıxış edənlər yerli icra hakimiyyəti ilə qarşılıqlı fəaliyyətin daha da gücləndirilməsinin vacibliyini qeyd edib, birgə layihələrin həyata keçirilməsi üçün təkliflərini səsləndiriblər.

Sonda qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, gələcək əməkdaşlıq istiqamətləri müəyyənləşdirilib və birgə fəaliyyətin davamlı xarakter daşıyacağı bildirilib.

# Namaz qılmayan şəxs oruc tuta bilər? - Deputatdan açıqlama



***”Zaman-zaman İslam dünyasında, xüsusilə Azərbaycanda ən çox müzakirə olunan və sual verilən mövzulardan biri namaz qılmayan şəxsin oruc tutması ilə bağlıdır. Təəssüf ki, cəmiyyət olaraq biz özümüzdən daha çox başqalarının əməllərini təftiş etməyə meylliyik”.***

”Unikal” xəbər verir ki, bunu deputat Ceyhun Məmmədov deyib. O bildirib ki, İslam müsəlmanlara bütün ibadətləri yerinə yetirməyi tövsiyə edib:

”Bu baxımdan oruc tutan şəxsin namaz qılmaqla yanaşı, digər ibadətləri də yerinə yetirməsi daha doğrudur. Çünki dinimizdə hər iki ibadəti yerinə yetirmək vacibdir. Ancaq namaz və oruc ayrı-ayrı ibadətlər olduğuna görə namaz qılmayan şəxsin oruc tutmasında heç bir qəbahət yoxdur. Onu da unutmayaq ki, bəlkə də bu il oruc tutan şəxs növbəti günlərdə namaz qılmağa başlayacaq. Ona görə daha çox başqalarının deyil, özümüzün əməllərini təftiş edək. O dünyada biz başqalarının deyil, öz əməllərimiz barədə sorğu-sual olunacağıq”.

# Ucarda əhaliyə göstərilən ödənişli xidmətlər

***2025-ci ildə əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri müqayisəli qiymətlərlə 2024-cü ilə nisbətən 2,4 faiz artaraq 44362,8 min manat təşkil etmiş, hüquqi şəxslər tərəfindən əhaliyə 10957,6 min manat, hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 33405,2 min manatlıq xidmət göstərilmiş və xidmətlərin ümumi həcmində onların xüsusi çəkisi müvafiq olaraq 24,7 və 75,3 faizi təşkil etmişdir***

**Ödənişli xidmətlərin həcmi, min manatla**

| Göstəricilərin adı | 2025-ci il | 2024-cü il | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|---|
| Ödənişli xidmətlərin həcmi, cəmi | 44362,8 | 40697,1 | 102,4 |
| o cümlədən: hüquqi şəxslər üzrə | 10957,6 | 10052,2 | 102,4 |
| hüquqi şəxs yaratmadan xidmət fəaliyyəti göstərən fərdi sahibkarlar üzrə | 33405,2 | 30644,9 | 102,4 |

***Ucar Rayon Statistika İdarəsinin rəis müavini***
***Emin Qəhrəmanov***

# Nəqliyyat və rabitənin inkişafı

***2025-ci ildə nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fərdi sahibkarlar tərəfindən 5305,3 min manatlıq xidmət göstərilmiş və 2024-cü illə müqayisədə 20,8 faiz çox olmuşdur. Avtomobil nəqliyyatı ilə 2025-ci ildə 6489,0 min sərnişin, 1435,0 min ton yük daşınmış və 2024-cü illə müqayisədə müvafiq olaraq 5,9 faiz və 5,5 faiz artmışdır.***

| Göstəricilərin adı | Ölçü vahidi | 2025-ci il | 2024-cü il | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|---|---|
| Sərnişin daşınması | min sərnişin | 6489,0 | 6125,0 | 105,9 |
| Yük daşınması | min ton | 1435,0 | 1360,0 | 105,5 |
| Nəqliyyat və anbar təsərrüfatı sahəsi xidmətlərinin həcmi | min manat | 5305,3 | 4326,8 | 120,8 |

2025-ci ildə informasiya və rabitə sektorunda fəaliyyət göstərən müəssisələr tərəfindən 2425,4 min manatlıq xidmət göstərilmiş, 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 89,2 faiz və ya 1151,0 min manat çox olmuşdur.

| Göstəricilərin adı | 2025-ci il | 2024-cü il | 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|---|
| Rayon üzrə cəmi cəmi | 2425,4 | 1274,4 | 189,2 |

***Ucar Rayon Statistika idarəsinin baş məsləhətçisi***
***Tural Əzizli***

## Tikinti




***İlkin məlumatlara əsasən 2025-ci ildə müəssisə və təşkilatlar tərəfindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala bütün maliyyə mənbələrindən 10218,3 min manat və ya 2024-cü illə müqayisədə 2,1 faiz az investisiya yönəldilmişdir.***

Əsas kapitala yönəldilmiş investisiyanın 4491,1 min manatı və ya 44,0 faizi dövlət, 5727,2 min manatı və ya 56,0 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür.

***Ucar Rayon Statistika idarəsinin aparıcı məsləhətçisi***
***Cəlil Vəliməmmədov***

# Azərbaycanın məşhur restoranlarının ağlasığmaz iftar qiymətləri

## Mərhəmət və paylaşmaq ayında bu da oldu: bir nəfərlik ailənin Ramazan menyusuna hətta 600 manat qiymət qoyanlar da var - Fantastik rəqəmlər!

***Azərbaycanın bəzi məşhur restoranlarının iftar menyularının qiymətləri açıqlanıb. Qiymət, nə qiymət! Oxuduqca adamın tükləri biz-biz olur. Gəlin bəzilərinə göz ataq.***

”Four Season” hotelində yerləşən ”Zafferano” restoranında iftar menyusunun bir nəfərlik qiyməti 120 manat təşkil edir. Bəli, bəli, 120 manat! Burada iftar süfrəsinə minimum iki nəfər qəbul edilir. Üstəlik, belə çıxır, beş nəfərlik ailə sadəcə bir iftara 600 manat ödəməlidir.

Bakının məşhur ”Günaydın” restoranında bir nəfər üçün iftar menyusunun qiyməti 90 manatdır. ”Fairmont Baku”da yerləşən ”Le Bistro” restoranında isə bir nəfərlik iftar menyusu 88 manata təklif olunur. Bu restoranlarda iftar edən yenə 5 nəfərlik bir ailənin cibində təxminən 500 manat olmalıdır!

Paytaxtın Xəqani küçəsindəki məşhur ”Ağabala” restoranında və ”The Ritz Carlton”nun ”Tribeca” restoranında iftar menyusu bir nəfər üçün 85 manata təklif olunur. Yəni beş nəfərlik ailə üçün 400 manatdan çox!

”JW Marriot Abşeron Baku”da yerləşən ”Fireworks Urban Kitchen” restoranında bir nəfər üçün iftar menyusunun qiyməti 80 manat, ”Zest Lifestyle Cafe”də isə açıq bufet formatında 50 manat müəyyənləşib. ”Hilton”da yerləşən ”Sky Grill” restoranında iftar menyusu 70 manata təklif olunur.

”Gizli Bahçe” restoranında da oruc tutan bir şəxsə iftar açmaq 70 manata başa gələcək. Burada 10%-lik servis haqqı da nəzərdə tutulub. ”Prive Steak Gallery” restoranında iftar açmaq istəyən şəxs 45, 60 və ya 70 manat ödəməlidirlər. Üstəlik, 10%-lik servis haqqı da var.

Bayraq Meydanının yaxınlığında yerləşən ”Ruby 360 Baku” restoranında iftar menyusu bir nəfər üçün 45 manat təşkil edir. Buraya 10%-lik sevis haqqı da daxildir.

”Dreamland”da yerləşən ”Green Lounge” restoranında bir nəfər üçün iftar menyusu 55 manat təşkil edir. Burada 7%-lik servis haqqı da mövcuddur. ”Baku Marriott Hotel Boulevard”da yerləşən ”Black City Lounge” restoranında isə bir nəfər üçün iftar menyusu 48 manat təşkil edir. Yəni bu restoranlarda da beş nəfərlik bir ailə ən azı 250-300 manat xərcləməlidir.

Bir nəfərin iftar açması ”Torqovı”da yerləşən ”Societe Baku”da 50-70 manata, ”Central Baku”da 44 manata başa gəlir. İçəri şəhərdə yerləşən ”Shak Garden” restoranında bir nəfərlik iftar menyusu 60 manat təşkil edir. Burada 10 faizlik servis haqqı da mövcuddur.



Səbaildəki məşhur ”Badam d'Art” Hotelin restoranında orucunu açmaq istəyən şəxslərə iftar menyusu 50 manata təklif olunur.

Göründüyü kimi, mərhəmət, paylaşmaq ayı olan Ramazanda iftarlar da dəbdəbə, lüks xarakteri almağa başlayıb. Halbuki yuxarıdakı qiymətlərlə nə qədər imkansız ailənin ən azı bir ay boyunca süfrəsini gözəlləşdirmək, qarnını doyurmaq olardı. Bəyəm, Ramazanın kəraməti də elə bunda deyilmi?

Digər tərəfdən, xanımlar və cənablar, Ramazan nəfsimizi tərbiyə ayıdır. Bu, onun əsas fəlsəfəsini təşkil edir. Belə olan təqdirdə ağlasığmaz qiymətlərlə müşayiət olunan iftar menyuları hansı məntiqə sığır? Ən azı, ilin bir ayında görməmişlikdən, dəbdəbə, lüks hərisliyindən uzaqda dayanmaq o qədərmi çətindir? Bir halda ki, Ramazan ayının əsas fəlsəfəsindən bu qədər uzaqsınız, onda tutulan orucun hansı anlamı qalır?

Üçüncü məqam: bahalı menyu təklif edən restoranlar insanlarımızı həm israfa sövq edirlər, digər tərəfdən də onların dini duyğularından istifadə edərək bu ayı özləri üçün biznes fürsətinə çevirirlər. Halbuki, İslam dini israfa qarşıdır. Üstəlik, insanın dini duyğularını istismar edərək, bundan şəxsi mənfəət güdmək ən böyük günahlardan biridir.

İlahiyyatçıların da dediyi kimi, iftar - Allah qonaqlığıdır. Allah qonaqlığını bahalı menyular üçün vasitəyə çevirmək utanılmalı haldır. Əgər bir şəxs oruc tutursa, bunu iftar açarkən bolluca yemək üçün etmir. İnsan ac qalmaqla - acların halını yaşayır, bununla özündə sosial yardımlaşma xüsusiyyətini formalaşdırır. Aclığın nə qədər əzablı bir şey olduğunu anlayır və imkanı çatdıqca başqalarına əl tutmaq, özünün sahib olduğu nemətləri imkansızlarla bölüşmək ehtiyacı duyur. Ancaq indi belə görünür ki, iftar süfrələri də birilərinin öz maddi gücünü nümayiş etdirməyə, birilərinin isə Allah qonaqlığını öz ciblərini doldurmaq vasitəsinə çevirməyə sürükləyir.

Ayıbdır, həm də çox ayıbdır. Mənəvi dəyərlərin, dini hisslərin belə kimlər üçünsə bu qədər maddiləşməklə, kapitallaşmaqla biriləri savab axtararkən günah bataqlığına gömüldüklərini anlamırlar. Deməli ortada böyük bir ayıbla yanaşı, dərin bir cahillik də var.

Allah belələrinə ağıl versin, başqa nə deyək?!

***Toğrul Əliyev***

## 5.3.12. azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Liberal iqtisadiyyatda KOB-ların rolu

## KOBİA: "Sahibkarlığın təşviqi və KOB-lar üçün yaradılan imkanlar böyükdür"

***İstənilən bir ölkədə iqtisadiyyatın dayanıqlı inkişafı və məşğulluğun artırılması birbaşa sahibkarlığın gücləndirilməsi ilə bağlıdır. Bu baxımdan kiçik və orta biznes subyektlərinin dəstəklənməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi qəbul edilir.***

Sahibkarlıq mühitinin sağlamlaşdırılması, biznes təşəbbüslərinin təşviqi və yeni iş yerlərinin yaradılması məqsədilə həyata keçirilən ardıcıl islahatlar həmin sahənin inkişafına güclü təkan verir. Dövlətin kiçik və orta sahibkarlığa dəstəyi, azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqində böyük əhəmiyyət kəsb edir. Ölkəmizdə fəaliyyət göstərən Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) sahibkarlara hərtərəfli dəstək göstərərək, onların bilik və bacarıqlarının artırılmasına, maliyyə resurslarına çıxışının genişləndirilməsinə, eləcə də biznes mühitində üzləşdikləri çətinliklərin aradan qaldırılmasına kömək edir. KOBİA-nın həyata keçirdiyi xidmət və təşəbbüslər ölkədə sağlam rəqabət mühitinin formalaşmasına, innovativ ideyaların reallaşmasına və yerli biznesin beynəlxalq bazarlara inteqrasiyasına geniş imkanlar açır. Sahibkarlara göstərilən xidmətlərin mərkəzləşdirilmiş, şəffaf və operativ şəkildə təşkili biznes subyektlərinin vaxt itkisinin minimuma endirilməsinə, inzibati prosedurların sadələşdirilməsinə və fəaliyyətin daha rahat qurulmasına şərait yaradır.

Məsələn, sahibkarlara vahid məkanda çoxsaylı dövlət və özəl xidmətlər təqdim edən KOB evləri qısa müddət ərzində biznes ictimaiyyətinin etimadını qazanaraq praktiki dəstək platforması kimi formalaşıb. 2025-ci ildə sahibkarlara KOB evlərində ümumilikdə 543033 xidmət təqdim olunub.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) "Unikal" qəzetinin sorğusuna cavabda bildirilib ki, 2025-ci ildə sahibkarlığın təşviqi, gənclərin və qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunması, innovativ biznes təşəbbüslərinin dəstəklənməsi, maliyyə resurslarına çıxış və alternativ maliyyələşmə və s. istiqamətlərdə bir sıra layihə və proqramlar həyata keçirilib.

KOBİA-nın tərəfdaş qurumlarla birgə reallaşdırdığı "Qarabağ KOB-ları", "Uğurlu tərəfdaşlıqda xanım sahibkarlar", "Bizdən biznesə" startap müsabiqəsi, "Gənclərin biznes emalatxanası", "Biznes Akademiyası", "İnvestisiya səyahəti", "Regional tərəfdaşların inkişafı" və s. layihələrdən ümumilikdə 300-ə yaxın sahibkar, biznesə başlamaq istəyən şəxs və startap faydalanıb. Layihələr Bakı şəhərini və ölkə regionlarını əhatə edib. Bu layihələr çərçivəsində iştirakçıların biznes biliklərinin artırılması üçün təlimlər, ofis və istehsalat ziyarətləri, dövlət qurumları ilə görüşlər, master klaslar təşkil olunub, sahibkarlara müxtəlif avadanlıqlar verilib, startap layihələrinə maliyyə dəstəyi göstərilib.




Həmçinin sahibkarlar və digər maraqlı tərəflər KOBİA-nın tərəfdaş qurumlarla birgə 2026-cı ildə həyata keçirəcəyi müxtəlif layihə və proqramlar barədə Agentliyin www.smb.gov.az internet səhifəsini və sosial media hesablarını izləməklə məlumat əldə edə bilərlər.

Bu quruma müraciətlərin əsas hissəsi biznes fəaliyyətinin həyata keçirilməsi üçün vacib olan sənədlərin rəsmiləşdirilməsi, eləcə də vergi məsələləri ilə bağlı olub ki, bu da sahibkarların gündəlik fəaliyyətində ən çox qarşılaşdıqları ehtiyac və çağırışları əks etdirir.

Həmçinin göstərilən xidmətlərin bölgələr üzrə bölgüsü də KOB evlərinin fəaliyyət miqyasını aydın ortaya qoyur. KOBİA-nın məlumatına görə, müraciətlərin 327 minə yaxını "Bakı KOB evi"nin, 131 mindən çoxu "Yevlax KOB evi"nin, 18 minə yaxını "Xaçmaz KOB evi"nin, 67 mindən çoxu isə "Xaçmaz KOB evi"nin "Food City" Aqroparkında yerləşən xidmət mərkəzinin payına düşür. Bu faktlar paytaxtla yanaşı, regionlarda da KOB evlərinə artan tələbatı və sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsinin genişləndiyini təsdiqləyir. Sahibkarlara göstərilmiş xidmətlərin 496 minə yaxını dövlət qurumları ("G2B"), 47 mindən çoxu isə biznes qurumları ("B2B") tərəfindən təqdim edilib.

Sahibkarlar KOB evlərinə ən çox yükdaşımaların həyata keçirilməsi üçün tələb olunan icazə blanklarının və fərqləndirmə nişanlarının alınması, mənşə sertifikatlarının rəsmiləşdirilməsi, fiziki şəxslərin vergi uçotuna alınması, eləcə də vergi ilə bağlı digər məsələlərin həlli məqsədilə müraciət ediblər. Bundan başqa, gömrük prosedurları, kommunal və bank xidmətləri ilə bağlı müraciətlər də əhəmiyyətli pay təşkil edib. Bu isə o deməkdir ki, KOB evləri sahibkarlıq fəaliyyətinin müxtəlif mərhələlərini əhatə edən universal xidmət məkanıdır.

KOB-ların biznes biliklərinin və bacarıqlarının artırılması üzrə göstərdiyi dəstək və xidmətlər sahibkarların peşəkar inkişafına, idarəetmə keyfiyyətinin yüksəlməsinə və rəqabətqabiliyyətli fəaliyyətin qurulmasına mühüm töhfə verir. Təlimlər, məsləhət xidmətləri və mentorluq proqramları KOB-lara bazar tələblərinə uyğunlaşmaq, maliyyə və strateji qərarları daha düzgün vermək imkanı yaradır. Belə dəstək mexanizmləri innovasiyaların tətbiqini sürətləndirir və dayanıqlı biznes mühitinin formalaşmasına xidmət edir.

Ötən il KOB subyektləri biznes istiqamətində bilik və bacarıqların artırılması məqsədilə geniş fəaliyyət göstərib.

KOBİA bildirir ki, Bakı və regionlarda keçirilən 751 təlimdə satış, marketinq, mühasibatlıq, idarəetmə, brendləşmə, innovasiya, biznes planlama və "yaşıl iqtisadiyyat"ı əhatə edən mövzular üzrə dərslər keçirilib. Videotəlim platformasından 475 sahibkar və biznesə başlamaq istəyən şəxs faydalanıb. Eyni zamanda 340 sahibkara satış, marketinq, biznes planlama, mühasibatlıq və hüquqi məsələlərlə bağlı məsləhət xidməti göstərilib, 288 biznes-planın hazırlanmasına dəstək verilib. Ümumilikdə, 2025-ci ildə KOBİA-nın dəstək və xidmətlərindən 7 mindən çox KOB, startap və sahibkar yararlanıb. Bütün xidmətlər canlı və onlayn rejimdə, tam ödənişsiz təqdim olunub.

Yola saldığımız il KOB-ların satış imkanlarının genişləndirilməsi sahəsində də uğurlu nəticələrlə yadda qalıb. Mikro və kiçik sahibkarların məhsul və xidmətlərinin bazara çıxarılması, tanıdılması, satışının artırılması üçün bir sıra dəstək mexanizmləri uğurla tətbiq olunub: 350 mikro, kiçik və orta biznes subyekti bu imkanlardan yararlanıb. 85 KOB ölkədaxili və xarici sərgilərdə (8-i yerli, 3-ü xarici) ödənişsiz iştirak edib. Göygöl, Şuşa və Göyçayda keçirilən 3 "KOB Fest" sərgi-satış yarmarkasında 220 sahibkar məhsul və xidmətlərini təqdim edərək satış həyata keçirib. Mikro və kiçik sahibkarların məhsullarının iri ticarət şəbəkələrində satışı üçün yaradılmış 7 satış nöqtəsində isə 45 KOB-un məhsulu alıcıların ixtiyarına verilib.

Göründüyü kimi, 2025-ci ildə KOBİA-nın həyata keçirdiyi dəstək və təşəbbüslər KOB-ların biznes biliklərini artırmaqla yanaşı, onların satış imkanlarını da əhəmiyyətli dərəcədə genişləndirib. Təlimlər, məsləhət xidmətləri, sərgi və yarmarkalar vasitəsilə sahibkarlar yeni bazarlara çıxış əldə edib, məhsul və xidmətlərini tanıdıb, iri ticarət şəbəkələrində satış imkanlarını artırıblar. Bu fəaliyyətlər KOB-ların davamlı inkişafına təkan verir, rəqabət qabiliyyətini gücləndirir, ölkədə sahibkarlığın daha dayanıqlı formalaşmasını sürətləndirir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# Bakıdan Laçına avtobus reysi açılır

***"Böyük Qayıdış" proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərdə məskunlaşan vətəndaşların keyfiyyətli nəqliyyat xidmətləri ilə təmin olunması məqsədilə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən yeni Bakı-Laçın müntəzəm avtobus reysi təşkil edilir.***

Bu barədə "Unikal"a AYNA-dan bildirilib. Fevralın 25-dən fəaliyyətə başlayacaq Bakı-Laçın reysi üzrə avtobuslar Laçın-Həkəri-Zəngilan yolu ilə hərəkət edəcək. Avtobuslar Bakı Beynəlxalq Avtovağzal Kompleksindən Laçına hər gün saat 08:00-da, əks istiqamətdə isə 16:00-da yola düşəcək. Bakı-Laçın reysi üzrə gedişhaqqı 16,10 AZN müəyyən edilib.

Marşrut üzrə aralıq məntəqəsi Zəngilan rayonunun Ağalı kəndi təyin olunub. Aralıq məntəqə üzrə gedişhaqqı 13,80 AZN müəyyən edilib.

Qeyd edək ki, hazırda sərnişinlər Laçına səfər etmək üçün Bakı-Xankəndi-Laçın müntəzəm avtobus reysindən istifadə edirlər. Yeni Bakı-Laçın reysi istifadəyə verildikdən sonra Bakı-Xankəndi-Laçın reysi artıq Bakı-Şuşa reysi kimi fəaliyyət göstərəcək və son məntəqə Şuşa şəhəri təyin ediləcək.

Bakı-Şuşa müntəzəm avtobus reysi, hazırda olduğu kimi, gündə 2 dəfə həyata keçiriləcək. Belə ki, reys üzrə avtobuslar Bakı Beynəlxalq Avtovağzal Kompleksindən Şuşaya saat 07:00 və 11:00, əks istiqamətdə isə 17:00-da və növbəti gün saat 09:00-da yola düşəcək. Məlumat üçün bildirək ki, reyslər üzrə avtobusların Şuşa şəhərindən və digər aralıq məntəqələrdən çıxış vaxtlarında dəyişiklik edilməyib.

Biletləri yalnız onlayn qaydada "biletim.az" portalı üzərindən əldə etmək mümkündür. Xatırladaq ki, Azərbaycan vətəndaşları "biletim.az" portalı və ya mobil tətbiqi üzərindən bilet əldə edərkən işğaldan azad edilmiş ərazilərə buraxılış üçün icazələr avtomatik qaydada təqdim olunur.

07_27 IYUI-QARA.qxd 2/19/2026 10:59 PM Page 13



## 2025-ci ildə Ağdaş rayonunun istehsal və xidmət sahələri üzrə əsas göstəriciləri




***2025-ci ildə Ağdaş rayonunda istehsal olunmuş məhsul və xidmətlərin 69,2 faizi istehsal sahələrinin, 30,8 faizi isə xidmət sahələrinin payına düşmüşdür.***

Rayonun əsas istehsal sahəsi olan kənd təsərrüfatı müəssisələrində, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında 258859,2 min manatlıq məhsul istehsal olunmuşdur ki, onun da 107240,1 min manatı və ya 41,4 faizi bitkiçilik, 151619,1 min manatı və ya 58,6 faizi isə heyvandarlıq məhsullarının payına düşmüşdür. 2024-cü illə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 0,4 faiz, o cümlədən bitkiçilik məhsulları istehsalı 1,1 faiz artmış, heyvandarlıq məhsulları istehsalı 0,2 faiz azalmışdır.

2025-ci ildə rayonun 17 sənaye müəssisəsi və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar, habelə ev təsərrüfatları tərəfindən 96160,8 min manatlıq və ya əvvəlki ilə nisbətən sabit qiymətlərlə 2,2 faiz çox sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Bu dövrdə sənaye məhsulunun 86,9 faizi emal, 11,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,8 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 0,1 faizi isə mədənçıxarma sektorlarında istehsal olunmuşdur. İstehsal olunmuş sənaye məhsulunun 12301,3 min manatı və ya 12,8 faizi dövlət, 83859,5 min manatı və ya 87,2 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür. İstehsal olunmuş sənaye məhsulunun 87213,3 min manatı və ya 90,7 faizi hüquqi şəxslərin, 6610,8 min manatı və ya 6,9 faizi ev təsərrüfatlarının, 2336,7 min manatı və ya 2,4 faizi isə fərdi sahibkarların payına düşmüşdür.

2025-ci ildə tikinti sahəsi üzrə məhsul buraxılışı əvvəlki illə müqayisədə 46,3 faiz azalaraq 5956,1 min manat olmuşdur. Bu dövrdə rayonda 100595,5 min manatlıq tikinti-quraşdırma işləri yerinə yetirilmişdir ki, bu da əvvəlki illə müqayisədə 2,2 dəfə çoxdur. Tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin 95507,0 min manatı və ya 94,9 faizi dövlət, 5088,5 min manatı və ya 5,1 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşmüşdür. Əvvəlki illə müqayisədə tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsait dövlət mülkiyyəti üzrə 2,5 dəfə artmış, qeyri-dövlət mülkiyyəti üzrə isə 21,9 faiz azalmışdır.

Rayonda 2025-ci ildə ticarət; nəqliyyat vasitələrinin təmiri, nəqliyyat və anbar təsərrüfatı və informasiya və rabitə sahələrində 160840,8 min manatlıq xidmətlər istehsal olunmuşdur. Bu göstərici əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə 0,2 faiz azdır. İstehsal olunmuş xidmətlərin 150915,6 min manatı və ya 93,8 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində, 9388,9 min manatı və ya 5,9 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 536,3 min manatı və ya 0,3 faizi isə informasiya və rabitə sahəsində olmuşdur. Ticarət şəbəkələrində əhaliyə faktiki qiymətlərlə 471611,3 min manatlıq və ya 2024-cü ilə nisbətən müqayisəli qiymətlərlə 1,3 faiz az istehlak malları satılmışdır.

***Ağdaş Rayon Statistika İdarəsi***

**ELAN**

Hüquqi ünvanı Ağsu rayonu Daşdəmirbəyli kəndində yerləşən və rayonun Ağarx, Ülgüc, Ağalarbəyli və Bozavand kəndlərində fəaliyyət göstərən Daşdəmirbəyli sudan istifadə edənlər birliyinə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ağsu rayon qeydiyyat şöbəsi tərəfindən 21.04.2009-cu il tarixdə 060009-Q2-0002 nömrəli şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Hüquqi ünvanı Ağsu rayon Musabəyli kəndində və rayonun Qaraqoyunlu, Muradlı, Növcü, Çiyni və Sarvan kəndlərində fəaliyyət göstərən Musabəyli sudan istifadə edənlər birliyinə Azərbaycan Respublikası Ədiliyyə Nazirliyinin Ağsu rayon qeydiyyat şöbəsi tərəfindən 05.01.2010-cu il tarixdə 060010-Q3-0006 nömrəli şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

# Peşə təhsilində yeni mərhələ - İxtisas təsnifatı yenilənir

***Elm və Təhsil Nazirliyində "Peşə təhsili üzrə ixtisasların təsnifatı"nın yenilənməsi məqsədilə yaradılmış İşçi qrupun ilk iclası keçirilib.***

"Unikal" xəbər verir ki, Elm və təhsil nazirinin müavini, Komissiyanın sədri Kənan Kərimzadənin rəhbərliyi ilə keçirilən iclasda Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Turizm Agentliyi və Peşə Təhsili üzrə Dövlət Agentliyinin nümayəndələri iştirak ediblər.



Açılış nitqi ilə çıxış edən elm və təhsil nazirinin müavini Kənan Kərimzadə son illərdə peşə təhsili sahəsinə ali səviyyədə göstərilən diqqət, aparılan sistemli islahatlar və nəticədə peşə təhsilinin əhatəliliyinin genişlənməsi ilə bağlı məlumatları iştirakçıların diqqətinə çatdırıb. Yerli və qlobal əmək bazarında baş verən dinamik dəyişikliklərin və peşə ixtisaslı kadr hazırlığının da bu dəyişikliklərə uyğun olaraq təkmilləşdirilməsi zərurətindən danışan nazir müavini mövcud "Peşə təhsili üzrə ixtisasların təsnifatı" sənədinin də yenilənməsinin vacib olduğunu qeyd edib.

Daha sonra təqdimatla çıxış edən nazirliyin Elm, ali və peşə təhsili şöbəsinin sektor müdiri Səbinə Babayeva hazırda peşə təhsili müəssisələrinə tələbə qəbulu üçün baza sənəd olan "Peşə təhsili üzrə ixtisasların təsnifatı"nın strukturu, təsnifatın yenilənməsini zəruri edən faktorlar və yeni təsnifat layihəsi ilə bağlı görülmüş işlərdən danışıb. Səbinə Babayeva İşçi qrupun üzvlərinə yeni təsnifat layihəsini təqdim edərək layihənin hazırlanmasında əsas götürülmüş prinsiplər, yanaşmalar və təklif olunan struktur, eləcə də İşçi qrupun üzvlərindən gözləntilər barədə məlumat verib.

Daha sonra aidiyyəti qurumların nümayəndələrinin təklifləri dinlənilib.

İclas müzakirə formatında davam etdirilib.

# Balakən rayonunun 2025-ci ildə sosial və iqtisadi inkişafının göstəriciləri

***Umumi məhsul buraxılışının həcmi 2024-cü illə müqayisədə 2025-ci ildə ilkin hesablamalara görə 7,0 faiz artaraq 328105,4 min manat təşkil etmişdir. Məhsul buraxılışının 23,4 faizi sənaye, 0,7 faizi tikinti, 38,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 1,3 faizi informasiya və rabitə, 32,9 faizi isə ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində istehsal edilmişdir.***




2025-ci ildə sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 76850,3 min manat olmuşdur. Qeyri-dövlət sektorunda istehsalın və xidmətlərin həcmi 65502,5 min manat və sənaye məhsulunun ümumi həcmində xüsusi çəkisi 85,2 faiz olmuşdur. Dövlət bölməsində isə sənaye məhsulu istehsalının həcmi 11347,8 min manat olmaqla sənaye məhsulunun ümumi həcminin 14,8 faizini təşkil etmişdir.

İstehsal edilmiş sənaye məhsulunun və göstərilmiş xidmətlərin 85,2 faizi emal sənayesinin, 13,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı müəssisələrinin payına düşür.

2025-ci ildə yüklənmiş malların həcmi 80068,0 min manat olmuş, o cümlədən öz istehsalı olan malların həcmi 76797,9 min manat təşkil etmişdir. Bununla yanaşı 2026-cı il yanvarın 1-i vəziyyətinə sənaye müəssisələrinin anbarlarında öz istehsalı olan hazır məhsul qalığı 176,9 min manat olmuşdur.

Kənd təsərrüfatı bitkilərinin yığımı başa çatmışdır. 2025-ci ildə qarğıdalı da daxil olmaqla tarlalardan 58786,0 ton və ya 2024-cü illə müqayisədə 13,4 faiz çox dənli və dənli paxlalı bitkilər, 10594,0 ton (60,2 faiz az) tərəvəz, 39905,6 ton (2,4 faiz çox) meyvə və giləmeyvə, 3011,0 ton (54,8 faiz az) kartof, 1905,0 ton (54,9 faiz az) bostan məhsulları, 336,0 ton (2,4 faiz çox) üzüm, 33,0 ton (eyni səviyyədə qalmışdır) günəbaxan, 155,0 ton (44,6 faiz çox) tütün yığılmışdır.

2025-ci ildə diri çəkidə 4349,5 ton ət, 22553,5 ton süd, 11035,0 min ədəd yumurta, 77,0 ton yun istehsal olunmuşdur. 2024-cü illə müqayisədə ət istehsalı 20,6 ton və ya 0,5 faiz, süd istehsalı 180,2 ton və ya 0,8 faiz, yumurta istehsalı 260 min ədəd və ya 2,4 faiz, yun istehsalı 1,0 ton və ya 1,3 faiz artmışdır.

2026-cı il yanvarın 1-i vəziyyətinə rayon üzrə 38431 baş qoyun və keçi, 28218 baş iribuynuzlu mal-qara, o cümlədən 13367 baş inək və camış mövcud olmuşdur.

2025-ci ildə bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyaların həcmi 14240,3 min manat məbləğində olmuşdur.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2025-ci ildə 790,0 min ton yük və 7953,0 min nəfər sərnişin daşınmış, 2024-cü illə müqayisədə yük daşınması 6,0 faiz, sərnişin daşınması isə 5,7 faiz artmışdır.

İnformasiya və rabitə sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən istehlakçılara 4122,0 min manatlıq və ya 2024-cü illə müqayisədə 22,0 faiz çox xidmət göstərilmişdir.

2025-ci ildə pərakəndə ticarət şəbəkəsindən əhaliyə 337644,9 min manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 74626,0 min manatlıq ödənişli xidmət göstərilmişdir. 2024-cü illə müqayisədə əmtəə dövriyyəsi 0,3 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir isə 8,5 faiz artmış, ticarət şəbəkəsində 231495,8 min manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 106149,1 min manatlıq qeyri-ərzaq malları satılmışdır.

2025-ci ilin yanvar-noyabr aylarında muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2024-cü ilin müvafiq dövrünə nisbətən 9,6 faiz artaraq 618,3 manat təşkil etmişdir

Rayon əhalisinin sayı ötən ilin əvvəlindən 257 nəfər və ya 0,3 faiz artaraq 2026-cı il yanvar ayının 1-i vəziyyətinə ilkin hesablamalara görə 101276 nəfərə çatmışdır.

***Balakən Rayon Statistika İdarəsinin rəisi Əsəbəli Alqayev***

07_27 IYUl-QARA.qxd 2/19/2026 10:59 PM Page 14



# Bu içki gün boyunca insanı tox tutur - İmsakda tövsiyə olunandır

***Ramazan ayının ilk imsak həyəcanı yaşanarkən, uzun sürən aclıq saatlarına hazırlıq da böyük əhəmiyyət kəsb edir. Gün boyu enerjili qalmaq və aclıq hissini daha gec yaşamaq üçün imsakda seçilən qidalar həlledici rol oynayır.***

"Unikal" diqqətə çatdırır ki, mütəxəssislər ağır və duzlu yeməklər əvəzinə, həzmi asan, balanslı və tox saxlayan alternativlərin seçilməsini tövsiyə edirlər. Xüsusilə həm çəkiyə nəzarəti qorumaq, həm də gün ərzində halsızlıq yaşamamaq istəyənlər aşağı kalorili, lakin qidalandırıcı reseptlərə üstünlük verirlər.



Ramazanda imsak üçün həm yüngül, həm də tox tutan alternativ axtaranlar üçün bu resept ön plana çıxır. Banan, yulaf, bal, qoz və kefirlə hazırlanan içki zülal, lif və sağlam yağ tərkibi sayəsində uzun müddət toxluq hissi yaradır.

Banan təbii şəkər və kalium mənbəyi kimi enerji verir, yulaf isə yüksək lif tərkibi ilə həzmi ləngidir. Qozun tərkibindəki sağlam yağlar toxluq müddətini uzadır, bal isə ölçülü istifadə olunduqda əlavə enerji dəstəyi verir. Kefir isə həm zülal, həm də probiotik tərkibi ilə həzm prosesini dəstəkləyir.

Hazırlanması üçün bütün ərzaqları blenderdən keçirmək kifayətdir. İstəyə görə, bir neçə parça buz əlavə edərək içkinin daha sərin və təravətli konsistensiya almasını təmin etmək mümkündür.

***Gülayə Mecid***

# 2025-ci ildə Abşeron rayonunun "Sosial-iqtisadi inkişafı" haqqında göstəriciləri belə olub

***Dövlətimizin başçısı cənab İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına yetirdiyi böyük diqqət və apardığı sosial-iqtisadi inkişaf strategiyasının nəticəsi olaraq ölkəmiz inamla inkişaf edir, böyük infrastruktur layihələri icra olunur.***

Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkənin bütün regionlarında, o cümlədən Abşeron rayonunda da iqtisadiyyatın yüksəlməsi ilə müşahidə edilir. Belə ki, rayonda fəaliyyət göstərən sənaye müəssisələri tərəfindən il ərzində 1029.1 milyon manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. Sənayenin inkişafında qeyri-dövlət sektorunun fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Qeyri-dövlət subyektləri tərəfindən hesabat ili ərzində 900.9 milyon manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da ümumi məhsulun 87.5 faizi qədərdir.

Rayonun sosial-iqtisadi infrastruktur sahələrindən biri olan nəqliyyat sektoru da cəmiyyətin inkişafında mühüm rol oynayır. Dövr ərzində fiziki şəxslər tərəfindən yük və sərnişin daşınmasından əldə olunan gəlir 59.1 milyon manat olmuşdur.

Hesabatların təhlilindən məlum olur ki, bu dövrdə müəssisə və təşkilatlara, həmçinin əhaliyə faktiki qiymətlərlə 32.8 milyon manatlıq rabitə xidməti göstərilməklə rayonun iqtisadi inkişafında rabitə və informasiya sahəsinin də əhəmiyyətli yeri var. Bu sahədə əldə olunan gəlirin 55.6 faizi qeyri-dövlət sektorunun payına düşür.

Hesabat ilində rayonda 365.3 milyon manatlıq investisiya qoyuluşu olmuşdur ki, bu investisiyanın 302.5 milyon manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir.

Cari dövr ərzində əhaliyə pərakəndə ticarət və iaşə şəbəkələrindən 1632.2 milyon manata bərabər istehlak malları satılmış və iaşə xidmətləri göstərilmişdir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 6.6 faiz çoxdur. Əhaliyə göstərilən ödənişli xidmətin dəyəri isə 190.2 milyon manat olmuş, bunun da 65.1 milyon manatı dövlət, 125.1 milyon manatı isə qeyri-dövlət mülkiyyətinə məxsus təşkilatlar tərəfindən əldə edilmişdir.

Abşeron rayonunda 2025-si ilin yanvar-dekabr aylarında 460.0 hektar sahədə payızlıq və yazlıq dənli və dənli paxlalı bitkilərin (qarğıdalısız) əkini aparılmış və bu əkin sahəsindən 805.4 ton məhsul yığılmışdır.



İlkin məlumatlara əsasən rayonun kənd təsərrüfatı müəssisələrində, əhali və kəndli fermer təsərrüfatlarında 2026-cı il yanvar ayının 1-i vəziyyətinə 17188 baş iribuynuzlu mal qara, o cümlədən 10691 baş inək və camış, 72675 baş isə qoyun və keçi mövcud olmuşdur. Təqdim olunan statistik məlumatlara və müvafiq hesablamalara görə diri çəkidə 16862 ton ət, 40924 ton süd istehsal edilmişdir.

Rayonda sosial sahənin inkişafı da yüksək səviyyədə təmin olunur, quruculuq-abadlıq işləri davam etdirilir.

***Abşeron Rayon Statistika İdarəsinin rəisi Təvəkkül Mirzəyev***

# 2025-ci ildə Ağdaşın iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri

***2025-ci ildə rayonda iqtisadiyyatın əsas sahələri üzrə ümumi məhsul buraxılışı əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə 0,5 faiz azalaraq 521816,9 min manat olmuşdur.***

Ümumi məhsul buraxılışının 49,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 28,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,4 faizi sənaye, 1,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 1,2 faizi tikinti, 0,1 faizi isə informasiya və rabitə sahəsində yaranmışdır.




Bu dövrdə ümumi məhsul buraxılışı müqayisəli qiymətlərlə əvvəlki ilə nisbətən nəqliyyat və anbar təsərrüfatı sahəsində 19,9 faiz, informasiya və rabitə sahəsində 11,7 faiz, sənaye sahəsində 2,2 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 0,4 faiz artmış, ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində 1,3 faiz, tikinti sahəsində isə 46,3 faiz azalmışdır.

Məhsul və xidmətlərin 69,2 faizi istehsal sahələrinin, 30,8 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

***Ağdaş Rayon Statistika İdarəsi***

# Goranboyda 2025-ci ildə çalışanların əməkhaqqı statistikası

***2025-ci ilin yanvar-noyabr aylarında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2024-cü ilin müvafiq dövrünə nisbətən 4,6 faiz artaraq 693,2 manat təşkil etmişdir.***

Dövlət müəssisələrində çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 651,0 manat, özəl müəssisələrdə isə 776,1 manat olmuşdur.

**Cədvəl 1**

**2025-ci ilin yanvar-noyabr aylarında iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə orta aylıq nominal əməkhaqqı, manat**

| İqtisadi fəaliyyət növləri | Cəmi | o cümlədən | | Əvvəlki ilə nisbətən, faizlə |
|---|---|---|---|---|
| | | dövlət | qeyri dövlət | |
| CƏMİ | 693,2 | 651,0 | 776,1 | 104,6 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 467,8 | 691,8 | 465,8 | 101,3 |
| Mədənçıxarma sənayesi | 714,0 | - | 714,0 | 114,3 |
| Emal sənayesi | 511,1 | - | 511,1 | 124,9 |
| Elektrik enerjisi, qaz, buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 811,9 | 811,9 | - | 101,4 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 614,9 | 614,9 | - | 131,5 |
| Tikinti | 1504,5 | 957,0 | 1602,3 | 106,8 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 457,5 | 1015,3 | 443,3 | 108,4 |
| Nəqliyyat və anbar təsərrüfatı | 545,0 | 587,0 | 404,3 | 121,1 |
| İnformasiya və rabitə | 775,6 | 775,6 | - | 141,9 |
| Maliyyə və sığorta fəaliyyəti | 1757,5 | 2206,8 | 1704,4 | 94,4 |
| Peşə, elmi və texniki fəaliyyət | 824,9 | 766,4 | 892,0 | 125,3 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 539,4 | 569,2 | 407,0 | 116,7 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 865,6 | 892,2 | 444,8 | 104,6 |
| Təhsil | 574,6 | 575,1 | 400,0 | 102,8 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 746,5 | 755,8 | 546,0 | 108,1 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 640,1 | 641,1 | 516,1 | 117,3 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 943,7 | 526,7 | 1211,8 | 110,6 |

Ən yüksək orta aylıq nominal əməkhaqqı maliyyə və sığorta fəaliyyəti sahəsində 1757,5 manat, tikinti sahəsində 1504,5 manat və digər sahələrdə xidmətlərin göstərilməsi sahəsində isə 943,7 manat olmuşdur.

Ən aşağı orta aylıq nominal əməkhaqqı isə ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində 457,5 manat, emal sənayesi sahəsində 511,1 manat olmuşdur.

***Qrafik 1***

**İqtisadi fəaliyyət növləri üzrə 2025-ci ilin yanvar-noyabr aylarında orta aylıq nominal əməkhaqqı, manat**




***Göranboy Rayon Statistika İdarəsi***

# "Uniklinika"nın dövlətə 245 min manatdan çox borcu var

***Bakı şəhərində fəaliyyət göstərən "Uniklinika"nın ("Unikal-A" MMC) külli miqdarda vergi borcu olduğu üzə çıxıb.***

"Unikal"ın əldə etdiyi məlumata görə, klinikanın hazırda dövlətə 245 min 451 manat vergi borcu var.

Qeyd edək ki, "Uniklinika" "Unikal-A" MMC adı ilə vergi uçotuna alınıb. Nizamnamə kapitalı cəmi 30 AZN olan MMC-nin direktoru Xəyal Anar oğlu Əlizadədir.

07_27 IYUl-QARA.qxd 2/19/2026 11:00 PM Page 15



# İstanbulda “Casperlar” əməliyyatı - Polislər saxlanıldı



***İstanbulun Bakırköy rayon Prokurorluğu tərəfindən 9-u polis əməkdaşı olmaqla ümumilikdə 17 şübhəli barəsində saxlanılma qərarı verilib.***

”Unikal” Türkiyə KİV-ə istinadən xəbər verir ki, aparılan araşdırmalar zamanı şübhəlilərin ictimaiyyətdə “Casperlar” kimi tanınan yeni nəsil silahlı cinayət təşkilatına məlumat sızdırdıqları müəyyən edilib.

Saxlanılma qərarı çərçivəsində İstanbul, Muğla, Bursa, Giresun, Mersin və Şırnak vilayətlərində axtarış və müsadirə tədbirlərinin həyata keçiriləcəyi bildirilib.

***Gülayə Mecid***

# Ukrayna və Rusiya birgə administrasiya yarada bilər



***Ukrayna və Rusiya nümayəndələri Donetsk vilayətinin işğal olunmamış hissəsində birgə mülki administrasiya yaratmaq imkanlarını müzakirə edirlər.***

”Unikal” xəbər verir ki, bu barədə ”The New York Times” qəzeti mənbələrə istinadən yazıb.

Məlumata görə, bu ideya Cenevrədə danışıqlar zamanı müzakirə olunub və silahsızlaşdırılmış zonada administrasiyanın yaradılması ilə bağlıdır.

Kiyev bu məlumatı rəsmi olaraq təsdiqləməyib.

***Ağarza Elçinoğlu***

# Britaniya Kralının qardaşı Epşteyn işi ilə bağlı həbs edildi

***Böyük Britaniya Kralı Çarlzın kiçik qardaşı, keçmiş şahzadə Endryu Mauntbatten-Vindzor həbs edilib.***

”Unikal” xəbər verir ki, bu barədə Böyük Britaniya mətbuatı məlumat yayıb.

Temza Vadisi Polisi verdiyi açıqlamada, Norfolkdan olan altmış yaşlarında bir kişini dövlət vəzifəsində qanun pozuntusuna görə həbs etdiyini və Berkşir və Norfolkdakı ünvanlarda axtarışlar apardığını bildirib.Böyük Britaniya qanunlarına görə, polis onun adını açıqlamayıb.

O, Ceffri Epşteyn ilə münasibətləri olması iddiası ilə dövlət vəzifəsində qanunsuz hərəkətlərdə şübhəli bilinərək həbs edib. Vindzorun məxfi hökumət sənədlərini ölən cinsi cinayətkara ötürdüyü iddiaları araşdırılır.

***Ağarza Elçinoğlu***

# Bu üç ölkə birgə dəniz təlimlərinə başladı

***Rusiya, Çin və İran arasında Bəndər Abbas sularında birgə dəniz təlimləri başlayıb.***

”Unikal” xarici KİV-ə istinadən xəbər verir ki, manevrlər Amerikanın Yaxın Şərqdəki mövcudluğunun gücləndirilməsi fonunda keçirilir.

Məlumata görə, üç ölkənin dəniz qüvvələri İranın cənub sahillərində strateji əhəmiyyətli bir ərazidə koordinasiya və taktiki hazırlıq məşqləri keçirəcək.

***Gülayə Mecid***

## ELAN

Daşkəsən şəhər, Mədənçilər küçəsi ev 2 ünvanda yaşayan Ələkbərova Sevinc Aydın qızına, Daşkəsən şəhər Nəsimi adına tam orta məktəb tərəfindən verilmiş 1990-cı il tarixli, №105048 attestat itdiyi üçün etibarsız sayılır.

************************************************

Həsənova Elnarə Şahin qızına 25.01.2021-ci il tarixdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən verilən “Şəhid ailəsi üzvünun vəsiqəsi” (№ 001087) itdiyi üçün etibarsız sayılır.

# "Danışıqlar apardıq, səhəri gün sanksiya tətbiq etdilər" - Lavrov

***”Alyaska görüşündən bir neçə həftə sonra, tamamilə gözlənilmədən, Tramp administrasiyası ”Lukoil” və ”Rosneft” şirkətlərinə qarşı sanksiyalar elan etdi”.***



”Unikal” xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov ”Əl-Ərəbiyyə” telekanalına müsahibəsində deyib.

”Bundan sonra amerikalıların Hindistandan Rusiya neftini almağı dayandırmasını tələb etdikləri barədə elan yayıldı. Bu yaxınlarda OFAC (ABŞ Maliyyə Nazirliyinin bir bölməsi - Xarici Aktivlərə Nəzarət İdarəsi) Venesuelanın neft sənayesinin fəaliyyətini bərpa etməsinə icazə verən, lakin Rusiya, Çin, İran və Şimali Koreyanın iştirakını qadağan edən bir növ əmr verdi”, - Rusiya rəsmisi izah edib.

Lavrov əlavə edib ki, ”Cenevrədə keçirilən genişləndirilmiş hərbi-siyasi danışıqlara əlavə olaraq, amerikalı həmkarlarımızla ikitərəfli iqtisadi işçi qrupu yaratmaq barədə razılığa gəldik. Bu qrup çərçivəsində bütün bu məsələləri müzakirə edəcəyik. Tramp administrasiyası tərəfindən müəyyən edilmiş qarşılıqlı faydaların nə olduğunu anlamaq istəyirik”.

***Gülayə Mecid***

# Hərbçilərimiz Suriyadan çıxarılsın! - Trampdan əmr

***ABŞ ordusu Suriyada qalan təxminən min hərbçisini iki ay ərzində tamamilə geri çəkməyə hazırlaşır.***



“Unikal” xəbər verir ki, bu barədə ”The Wall Street Journal” nəşri məlumat yayıb.

Belə ki, geri çəkilmə başa çatdıqdan sonra ABŞ-nin Suriyadakı təxminən 10 illik hərbi mövcudluğu tamamilə sona çatacaq. Məlumata görə, ABŞ qüvvələri artıq Suriya-İordaniya-İraq sərhədində yerləşən strateji Ət-Tənəf qarnizonundan və Suriyanın şimal-şərqindəki Şəddadi hava bazasından çıxarılıb.

Qərarın, Suriyada İŞİD-ə qarşı mübarizədə ABŞ-nin tərəfdaşı olan YPG-nin demək olar ki, tam dağılması ilə əlaqədar verildiyi qeyd olunur.

Həmçinin, ABŞ-nin yeni mərhələdə Suriya prezidenti Əhməd Əl Şaraa administrasiyası ilə diplomatik əlaqələri gücləndirməyi və mümkün təhdidləri siyasi-diplomatik yollarla idarə etməyi planlaşdırdığı vurğulanır.

***Ayxanım Məlikova***

# "Ermənistanın dəmir yolu sistemi bir anda çökə bilər" - Şoyqu

***”Ermənistan hakimiyyətinin ölkədə dəmir yolu sisteminin idarə olunmasında Rusiyanı əvəz etmək istəyi düşünülməmiş bir qərardır.***

”Unikal” xəbər verir ki, bunu Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu deyib.

Onun sözlərinə görə, bununla təxminən iyirmi il ərzində formalaşmış sistem bir anda çökə bilər: ”Digər dövlətlərin dəmir yolu idarəetməsi sahəsindəki imkanlarını qiymətləndirməyəcəyəm, amma əminliklə deyə bilərəm ki, uzun illərdir Ermənistanda kifayət qədər çətin şəraitdə səmərəli şəkildə fəaliyyət göstərən Rusiya dəmir yolu operatorunu tamamilə əvəz edə biləcək başqa bir şirkətin olması ehtimalı azdır.

Təbii ki, heç bir ”dost ölkə” buna görə məsuliyyət daşımayacaq. Ümid edirəm ki, Ermənistan rəhbərliyi məsuliyyətli qərarlar qəbul edərkən yalnız öz vətəndaşlarının maraqlarını rəhbər tutacaq”.



***Ağarza Elçinoğlu***

# Keçmiş prezident ömürlük həbs cəzasına məhkum edildi

***Seul Mərkəzi Rayon Məhkəməsi Cənubi Koreyanın keçmiş prezidenti Yun Sok Yolu 2024-cü ilin dekabr ayında baş verən dövlət çevrilişinə görə ömürlük həbs cəzasına məhkum edib.***



”Unikal” xəbər verir ki, bu barədə ”Yonhap” agentliyi məlumat yayıb.

Belə ki, məhkəmə sabiq prezidenti Cənubi Koreyada fövqəladə vəziyyət elan edilməsi ilə əlaqədar çevrilişə rəhbərlik etməkdə günahkar bilib.

Xatırladaq ki, Yun Sok Yol 2024-cü il dekabrın 3-də xalqa müraciət edib. Yol bu zaman Koreya Respublikasını Şimali Koreyanın kommunist qüvvələrinin təhdidindən qorumaq üçün ölkədə fövqəladə hərbi vəziyyət elan edib. Cənubi Koreya Prokurorluğu onu qiyamda günahlandırdıqdan sonra Konstitusiya Məhkəməsi apreldə onun impiçmentini təsdiqləyib.

***Gülayə Mecid***

07_27 IYUl-QARA.qxd 2/19/2026 11:00 PM Page 16



# Gənc idmançımız Avrasiya çempionatının qalibi olub

***Laçın şəhərindən olan keçmiş məcburi köçkün ailəsinin üzvü, hazırda Bakı şəhərinin Qaradağ rayonu, "Qobu Park-1" yaşayış kompleksində məskunlaşan 29 nömrəli Laçın tam orta məktəbinin 9-cu sinif şagirdi Məhəmməd Vəli oğlu Rüstəmli beynəlxalq arenada növbəti böyük uğura imza atıb.***




"Unikal" xəbər verir ki, gənc idmançı məşqlərini "Qobu Park-1" yaşayış kompleksində fəaliyyət göstərən Azərbaycanın Milli Qəhrəmanı Şikar Aslanov adına idman klubunda davam etdirir. Burada yaradılmış müasir şərait sayəsində o, respublika səviyyəli yarışlarda dəfələrlə birincilik qazanaraq müxtəlif medallarla təltif olunub.

Məhəmməd Rüstəmli 13-15 fevral 2026-cı il tarixlərində Beynəlxalq Həvəskar Qreplinq Assosiasiyası (AİGA) tərəfindən keçirilən Avrasiya çempionatında ölkəmizi uğurla təmsil edib. 30-dan çox ölkənin və 90-dan artıq idman akademiyasının qatıldığı nüfuzlu AİGA qreplinq turnirində o, həm fərdi, həm də komanda hesabında fərqlənərək qızıl medal qazanıb. Məhəmmədin yüksək hazırlıq səviyyəsi Beynəlxalq Həvəskar Qreplinq Assosiasiyasının rəsmi platformalarında nümunəvi iştirak kimi xüsusi vurğulanıb.

Uzun illər çətin şəraitdə yaşamış Rüstəmlilər ailəsi dövlət tərəfindən həyata keçirilən sosial proqramlar çərçivəsində "Qobu Park-1" yaşayış kompleksində müasir və rahat mənzillə təmin olunub. Yaşayış kompleksindəki geniş idman infrastrukturu Məhəmməd kimi gənclərin peşəkar idmanla məşğul olmasına real imkanlar yaradıb.

Gənc çempion doğma Laçın şəhərinin işğaldan azad olunmasını böyük qürurla qarşıladığını bildirib:"Əldə etdiyim uğurlara görə ölkə rəhbərliyinə və bizə göstərilən diqqətə minnətdaram. Əsas arzum tezliklə doğma Laçına qayıtmaq, orada idmanın inkişafına töhfə vermək və gəncləri sağlam həyat tərzinə təşviq etməkdir".

Məhəmməd Rüstəmlinin bu qələbəsi dövlətin gənclər siyasətinin və idmana yönəlmiş ardıcıl strategiyasının növbəti uğurlu nəticəsidir.

# Həmin oyuna görə VAR-ın baş hakimi cəzalandırıldı

***İspaniya La Liqa Hakimlərinin Texniki Komitəsi (CTA) "Jirona" - "Barselona" matçına (2-1) görə məsul olan VAR sistemi rəsmisinə sanksiyalar tətbiq edəcək.***

"Unikal" xəbər verir ki, ev sahibi komandanın ikinci qolu sayılmamalı idi. Lakin VAR sistemi rəsmisi qolu qeydə alıb.

Hadisə matçın 86-cı dəqiqəsində baş verib. "Jirona"nın yarımmüdafiəçisi Klaudio Eçeverri "Barselona"nın müdafiəçisi Jül Kundenin ayağına topu butsu ilə vurub. Qayda pozuntusundan bir neçə saniyə sonra Eçeverri topu Joel Rokaya ötürüb və o, Fran Beltranın qələbə qolunu vurmasına kömək edib.

Hadisənin ciddiliyinə baxmayaraq, VAR rəsmisi hakimi oyunu dayandırmağa və təkrarı izləməyə çalışmayıb.

"Eçeverri qaydaları pozduğuna görə cəzalandırılmalı idi, Fran Beltranın qolu hesaba alınmadı. VAR-ın baş hakimi David Qalvez Raskona qarşı cəza tətbiq edilib və o, növbəti xəbərdarlığa qədər diskvalifikasiya olunacaq. Bu səhv matçın nəticəsinə çox təsir etdi və "Barselona"ya xal qazandırmadı", - Texniki Komitə açıqlayıb.



***Ağarza Elçinoğlu***

# Azərbaycan xizəkçiləri beynəlxalq turnirdə fərqləniblər

***Türk Dövlətləri Təşkilatının dəstəyi və Türkdilli Dövlətlərin Xizək Kurortları İttifaqının birgə təşəbbüsü ilə Türk Dövlətlərinin Xizək Kuboku təşkil olunub.***




Azərbaycan Qış İdman Növləri Federasiyasından verilən məlumata görə, Türkiyənin Uludağ Dağ Kurortunda keçirilən yarışda Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstandan olan 100-ə yaxın xizək həvəskarı iştirak edib.

Sayca 2-ci dəfə təşkil olunan kubokda əvvəlcədən qeydiyyatdan keçən 18-25, 26-45, 46+ yaş kateqoriyasında kişi və qadın idmançılar xizək idmanının nəhəng slalom növündə birincilik uğrunda mübarizə aparıblar.

Gərgin keçən yarışda 18-25 yaş kateqoriyasında qızlar arasında Sıla Kara (Türkiyə), oğlanlarda isə Aleksandr Çvetkov (Qazaxıstan) birinci yerə layiq görülüb. İkinci yerin sahibi Mahmut Kazanc (Türkiyə) olub. Muhammadali Asanov 3-cü yerdə qərarlaşıb.

26-45 yaş kateqoriyasında qızlar arasında Nataliya Lapşina (Qazaxıstan) birinci, Elvira Zakarayeva (Azərbaycan) ikinci, Buse Terim (Türkiyə) üçüncü olub. Oğlanların yarışında Ceyhun Balametov (Azərbaycan) 1-ci, Metehan Taşdemir (Türkiyə) 2-ci, Talip Gülle (Türkiyə) 3-cü yeri tutub.

46+ yaş kateqoriyasında Ali Akgül (Türkiyə) ali kürsüdə ilk yerdə qərarlaşıb. 2-ci və 3-cü yerləri isə Kamil Şar (Türkiyə) və Ömer Saraçer (Türkiyə) bölüşüblər.

Yarışın yekununda qaliblər kubok və medallarla təltif olunub, iştirakçılara müxtəlif həvəsləndirici hədiyyələr təqdim edilib.

Türk Dövlətlərinin Xizək Kubokunun keçirilməsinin əsas məqsədi türk xalqları arasında qış idman növləri sahəsində qarşılıqlı əməkdaşlığı gücləndirmək, birgə yarışların keçirilməsini təşviq etmək və xizək idman növünü təbliğ etməkdir.

Qeyd edək ki, növbəti Türk Dövlətlərinin Xizək Kubokunun ev sahibliyinə Qazaxıstan və Türkiyə öz namizədliyini irəli sürüb.




# Çempionlar Liqası: "İnter" uduzdu, "Atletiko" heç-heçə etdi

***UEFA Çempionlar Liqasında pley-off mərhələsinin ilk görüşlərinə yekun vurulub.***

"Unikal" xəbər verir ki, keçirilən dörd oyunun yalnız birində ev sahibləri sevinən tərəf olub. Ümumilkdə qapılara 17 qolun vurulduğu matçlarda aşağıdakı nəticələr qeydə alınıb:

**UEFA Çempionlar Liqası**

Pley-off mərhələsi

18 fevral

21:45. "Qarabağ" (Azərbaycan) 1:6 "Nyukasl" (İngiltərə)

19 fevral

00:00. "Brügge" (Belçika) 3:3 "Atletiko" (İspaniya)

00:00. "Olimpiakos" (Yunanıstan) 0:2 "Bayer" (Almaniya)

00:00. "Budyo Qlimt" (Norveç) 3:1 "İnter" (İtaliya).

Qeyd edək ki, bu mərhələnin cavab oyunları fevralın 24-25-də təşkil olunacaq.

# Tanınmış futbolçu klubsuz qaldı

***Braziliya millisinin sabiq üzvü Felippe Koutinyo "Vasko Da Qama"dan ayrılıb.***

QOL.az xəbər verir ki, 33 yaşlı yarımmüdafiəçi bu barədə sosial şəbəkə hesabında paylaşım edib.

Qeyd edək ki, Koutinyo 2025-ci ilin yayından Braziliya klubunda çıxış edirdi. O, daha əvvəl "İnter", "Liverpul", "Barselona" kimi komandalarda oynayıb. Bu illər ərzində yarımmüdafiəçi müxtəlif komandalarla 11 kubok qazanıb.

# Azərbaycan millisi Rusiyaya qarşı

***18 yaşadək futbolçulardan ibarət Azərbaycan millisi Beynəlxalq İnkişaf Turnirində bu gün ilk oyuna çıxacaq.***

B qrupunda yer alan millimiz Rusiyanın müvafiq yaş qrupundan ibarət komandası ilə qarşılaşacaq.

Belarusun paytaxtı Minskdə yerləşən yerli futbol federasiyasının məşq meydançasında keçiriləcək görüş Bakı vaxtı ilə saat 13:50-də başlanacaq.

Qeyd edək ki, Azərbaycan millisi fevralın 20-də Özbəkistan, 21-də Belarusla üz-üzə gələcək.

# Yamal oruc tutdu, klub hərəkətə keçdi

***"Barcelona" klubunun futbolçusu Lamin Yamal Ramazan ayı boyunca oruc tutacağını açıqlayıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu qərardan sonra klub rəhbərliyi futbolçunun fiziki durumunun zəifləməməsi üçün xüsusi proqram hazırlayıb.

Belə ki, "Barcelona FK" nın texniki və tibbi heyəti Yamal üçün fərdi qidalanma və yüklənmə planı tərtib edib. Proqram çərçivəsində onun məşq tempi, maye balansı və bərpa prosesi gündəlik nəzarətdə saxlanılacaq.

***Ayxanım Məlikova***